AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 19 MAY 2022-Cİ İL / № 18 (1285)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

## Azərbaycan Prezidenti İlham Əliyev Litva Prezidenti Gitanas Nauseda ilə görüşüb



**Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəsmi səfərə gələn Litva Respublikasının Prezidenti Gitanas Nausedanı qarşıladı.**

Rəsmi qarşılanma mərasimindən sonra hər iki ölkə başçısının görüşü olub.

**Litva Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyimə çox şadam və ölkəmizdə xoş vaxt keçirməyinizi arzu edirəm. Əminəm ki, səfəriniz ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verəcəkdir. Biz əməkdaşlığımızın səviyyəsindən məmnunuq. Səfəriniz çərçivəsində bir sıra tədbirlər baş tutacaq ki, onların arasında biznes forum da var. İşgüzar dairələrimiz arasında praktiki fəaliyyətlə bağlı qarşılıqlı böyük maraq var.

**Əlbəttə, siyasi əlaqələrimiz, siyasi dialoq və regional vəziyyət bu gün müzakirə edəcəyimiz məsələlər sırasındadır və mən həqiqətən də şadam ki, biz Bakıda görüşmək imkanı əldə etmişik. İki il bundan öncə bizim videokonfrans vasitəsilə görüşümüz oldu. Mən bu təşəbbüsə görə minnətdaram, bu, bizim ilk tanışlığımız idi. Bu gün isə Sizi qəbul etməyimdən məmnunam. Əminəm ki, özünüzü Azərbaycanda evinizdəki kimi hiss edəcəksiniz və buradan xoş xatirələrlə ayrılacaqsınız. Bir daha xoş gəlmisiniz, səfərinizin xoş keçməyini arzu edirəm.**

**Litva Prezidenti Gitanas Nauseda dedi:**

- Sağ olun, qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Bu, ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına əlavə təkan vermək üçün çox yaxşı fürsətdir. Mən ümidvaram ki, biz bu potensialı müəyyənləşdirərək ondan istifadə edəcəyik. Buraya biznesə yanaşı, ictimai həyatın müxtəlif sahələri də daxildir. Əlbəttə, regional təhlükəsizlik və Avropa İttifaqı ilə münasibətlər mühüm əhəmiyyət kəsb edən məsələlər sırasındadır. Litva hər zaman Qafqaz ölkələri ilə Avropa İttifaqı arasında daha sıx dialoqu dəstəkləyib. Biz Şərq Tərəfdaşlığı layihəsini də güclü şəkildə dəstəkləyirik və bu məsələni də Sizinlə müzakirə etmək arzusundayıq.

**İkitərəfli münasibətlərimiz və iqtisadi əlaqələrimiz əhəmiyyətlidir və şadam ki, məni işgüzar dairələri təmsil edən nümayəndə heyəti müşayiət edir. Onlar xüsusi tədbirdə iştirak edərək, mümkün iqtisadi əməkdaşlıq məsələlərini nəzərdən keçirəcəklər. Düzgün bilirəmsə, biz də orada açılış nitqi ilə çıxış edəcəyik.**

Əlbəttə, mədəniyyət və təhsil sahələri də vacibdir. Bizim iki universitetimizin rektoru və digər universitetləri təmsil edən nümayəndələr də Azərbaycanda səfərdədirlər. Onlar müştərək proqramları müzakirə edəcəklər ki, bu sahədə də əlaqələr daha yüksək səviyyəyə qalxsın.

Zənnimcə, ölkələrimiz arasında müəyyən coğrafi məsafə olsa da, xalqlarımız 1990-cı illərdən bəri mədəni əlaqələri yaxşı xatırlayır. Bu baxımdan bu sahəyə də təkan verilməsi mühüm əhəmiyyət kəsb edir.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.

Daha sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

**Mayın 18-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda biznes forumda iştirak ediblər.**

## AHİK SƏDRİ QAZİ AİLƏSİNİ ZİYARƏT EDİB

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və sədrin müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin (DİİXİHİ RK) sədri Hikmət Osmanov Birinci Qarabağ müharibəsi qazisi, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Fikrət İsayevi ziyarət ediblər.**




Görüş zamanı Səttar Möhbalıyev bildirib ki, müharibə iştirakçılarının sosial məsələlərinin həlli istiqamətində görülmüş işlər sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır. Onun sözlərinə görə, Azərbaycan xalqı mübariz oğul və qızlarının şücaətini hər zaman yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Qeyd edib ki, həm Birinci, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərə mənzillər, avtomobillər verilir, onlar üçün davamlı olaraq hər cür şərait yaradılır.

**AHİK sədri əlavə edib ki, 44 günlük Vətən müharibəsində yenilməz Azərbaycan Ordusunun qəhrəmanlığı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətini iflasa uğratdı, Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.**

DAVAMI SƏHİFƏ: 3-DƏ

## AZƏRBAYCAN-TÜRKİYƏ münasibətləri ayrılmaz tarixi birlik və qardaşlıq nümunəsidir

BAX SƏHİFƏ: 2

### Azərbaycanda Qida İtkisi və İsrafının qarşısının alınması üzrə strategiya hazırlanıb



BAX SƏHİFƏ: 4



### İşçilərin sağlamlığı ilboyu diqqətdə saxlanılmalıdır

BAX SƏHİFƏ: 4

### Uşaq Evi qaliblər sırasında



BAX SƏHİFƏ: 5

### Formula 1 yarışları yenidən öz azarkeşlərinə möhtəşəm həyəcan yaşadacaq

BAX SƏHİFƏ: 6

### "Zəka" intellektual bilik yarışması

BAX SƏHİFƏ: 8

### Müasir dünyamızda unudulan multikulturalizmi "Xarıbülbül" bütün dünyaya xatırlatdı

BAX SƏHİFƏ: 6

### Sərnişindaşıma qatarlarının fəaliyyəti niyə bərpa olunmur?

BAX SƏHİFƏ: 6



### Qardaş ölkələrin həmkarlar ittifaqları arasında münasibətlər davamlı olaraq inkişaf etməkdədir

BAX SƏHİFƏ: 2

### "Şəhid Ailələri və Müharibə Veteranlarına Yardım Mərkəzi" yaradılıb



BAX SƏHİFƏ: 3

### Elmir Əliyev "Çempionlar" turnirində qızıl medal qazanıb

BAX SƏHİFƏ: 8

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

### Tərəflər danışıqlar masasına ümid edirlər

BAX SƏHİFƏ: 7

### Mart və aprel aylarında 3 və 7 günlük kurslar keçirilib



BAX SƏHİFƏ: 3




# AZƏRBAYCAN-TÜRKİYƏ münasibətləri ayrılmaz tarixi birlik və qardaşlıq nümunəsidir

**"Azərbaycan-Türkiyə əlaqələri davamlı olaraq yüksələn xətlə inkişaf etməkdədir, münasibətlərimizdə gündən-günə yeni parlaq səhifələr açılır. Siyasi, iqtisadi-ticarət əlaqələri, enerji, mədəniyyət, təhsil sahəsindəki əməkdaşlığımız maksimum səviyyəyə çatıb. Əlaqələrimizin bu səviyyəyə çatması, təbii ki, hər iki ölkənin dövlət başçılarının xüsusi xidmətləri sayəsindədir. Xatırladım ki, möhtərəm Prezidentimiz İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə Türkiyəyə birmənalı dəstəyini ifadə edir. Eyni münasibət qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğan tərəfindən də sərgilənir. Bu, dövlətlərimiz və xalqlarımız arasında movcud olan həmrəyliyin və birliyin təcəssümüdür".**

**Bu fikirləri KİV-ə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

**Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqliyin bariz nümunəsidir: "Münasibətlərimizin daha da dərinləşməsində ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsini xüsusi olaraq qeyd etmək istərdim. Bəyannamədəki bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatı üçün əlverişli imkan yaradır. Vətən müharibəsi dövründə qardaş ölkənin mənəvi və diplomatik dəstəyini unutmaq olmaz. Əks-hücum əməliyyatları başlayan ilk saatlardan cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün Türk xalqının bizi dəstəkləməsi, sözün həqiqi mənasında, təmənnasız qardaşlığın böyük təntənəsi idi. Türkiyənin dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu, tarixə düşmüş böyük qardaşlığın əyani əlamətidir".**

Dövlət başçılarının qarşılıqlı səfərlərini xatırladan Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan və Türkiyə şad gündə də, dar gündə də hər zaman bir-birinin yanındadır: "Cənab Rəcəb Tayyib Ərdoğanın 2020-ci il dekabrın 10-da keçirilmiş Zəfər paradında iştirak etməsi, işğaldan azad olunmuş Azərbaycan ərazilərinə səfər etməsi, həmçinin Füzuli Beynəlxalq Hava Limanının açılışına qatılması dediklərimizin bir daha təsdiqidir. Və bu münasibətlər bütün dünyaya nümunə olacaq səviyydədir. Yeri gəlmişkən, bu il mayın 14-də Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimi keçirildi. Belə bir mötəbər tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Azərbaycan Prezidentinin iştirak etməsi, orada çıxış edərək Hava Limanının işinə uğurlar arzulaması münasibətlərimizin inkişafı istiqamətində mühüm hadisələrdən biri kimi dəyələndirərdim. Tədbirdə iki ölkə arasındakı münasibətlərin səviyyəsindən danışan dövlətimizin başçısı cənab İlham Əliyev Türkiyənin iqtisadiyyatına, o cümlədən turizm sahəsindəki yeni layihələrin həyata keçirilməsinə böyük töhfələr verəcək Rize-Artvin Hava Limanının açılışında Türk qardaşlarımızla bərabər olmaqdan məmnunluğunu ifadə etdi. İnanırıq ki, reallaşdırılan bütün bu səfərlər, görülən işlər əlaqələrimizi daha da dərinləşdirəcək, əməkdaşlığımızı möhkəmləndirəcək".

# Qardaş ölkələrin həmkarlar ittifaqları arasında münasibətlər davamlı olaraq inkişaf etməkdədir

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədr müavini Cavanşir Alxasov Türkiyə Kamu Çalışanları Sendikaları Konfederasiyasının 7-ci qurultayında iştirak edib.**

Tədbirdə çıxış edən C.Alxasov Azərbaycan-Türkiyə münasibətlərindən danışıb. Bildirib ki, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə əlaqələrinin davamlı olaraq inkişafı türk dünyasını daha sıx şəkildə bir araya gətirməkdədir. Onun sözlərinə görə, Azərbaycan tarixinin ən şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyə dövləti Azərbaycana tam dəstəyini göstərdi. Bu qardaşlıq münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığımızın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.



**Sədr müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarına əsaslanan Azərbaycan-Türkiyə qardaşlığı bütün sahələrdə hiss olunduğu kimi, həmkarlar ittifaqları sistemində də möhkəmlənməkdədir.**

C.Alxasov Türkiyə Kamu Çalışanları Sendikaları Konfederasiyasının yaranmasının 30 illiyi münasibətilə AHİK adından quruma Azərbaycanın milli xalçasını hədiyyə edib.

Qeyd edək ki, qurultayda Öndər Kahveçi yenidən Türkiyə Kamu Çalışanları Sendikaları Konfederasiyasının başqanı seçilib.

C.Alxasov Türkiyəyə səfəri çərçivəsində qardaş ölkənin həmkarlar ittifaqı olan "Hak-İş" Konfederasiyasının sədri Mahmut Arslanla görüşüb. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərindən, həmçinin iki qurum arasındakı əlaqələrdən, əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və perspektivlərdən danışılıb.

**C.Alxasov AHİK İcraiyyə Komitəsinin 12 avqust 2021-ci il tarixli qərarı ilə ötən il qardaş ölkədə baş vermiş yanğın nəticəsində məhv olmuş meşələrin bərpası üçün ayrılmış 17 100 manat pulu "Hak-İş" Konfederasiyasına təqdim edib.**

## *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

**İkinci Qarabağ müharibəsində, ehtiyatda olan zabit kimi, Ali Baş Komandanın əmri ilə döyüşlərdə iştirak etmişəm. Müharibə veteranıyam və hazırda orta məktəbdə Gənclərin çağırışaqədərki hazırlıq üzrə rəhbəri vəzifəsində çalışıram. Vətən müharibəsindən sonra əl və ayaqlarımda ağrılar olduğu üçün müalicə almaq məqsədilə yollayışın alınmasına görə məktəbimizin həmkarlar ittifaqı komitəsinə müraciət etdim. Müraciətimə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və sahə Hİ Salyan Rayon Komitəsi müsbət cavab verərək yollayışla təmin olundum.**

Müalicə aldığım "Möcüzəli Naftalan" sanatoriyası, burada olan xoş aura və müayinə prosesi haqqında razılıq dolu hisslərimi çatdırmaq istəyirəm. Ailəm və öz adımdan mənə göstərilən diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm. Nəzərinizə çatdırım ki, həm sanatoriyada, həm də sahə həmkarlar ittifaqı təşkilatında bizə lazımi qayğı göstərilmişdir.

**Qeyd etdiyim müsbət əlamətlər Azərbaycan həmkarlar ittifaqlarının bütün fəaliyyətində hiss olunur. Bu isə Sizin idarəçiliyinizin və təşkilatçılığınızın yüksək səviyyədə olduğunu göstərir. Sizin simanızda, hörmətli sədr, rəhbəri olduğunuz təşkilatın işlərini vicdanla yerinə yetirən, əmək insanlarına diqqət və qayğısını əsirgəməyən hər bir işçisinə və TİAHİ Salyan Rayon Komitəsinə təşəkkür edirəm. İşlərinizdə və gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. Allah Sizin kimi mərhəmətli insanlarımızı qorusun.**

**Bəhlul QURBANOV,**
**Salyan rayon Q. Mayılov adına Kürsəngi kənd tam orta məktəbin Gənclərin çağırışaqədərki hazırlıq üzrə rəhbəri**

# "Heydər Əliyevin dəmiryolunun inkişafında rolu" mövzusunda dəyirmi masa

**Dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsində Ümummilli Lider, dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "Heydər Əliyevin dəmiryolunun inkşafında rolu" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbirdə çıxış edən Respublika Komitəsinin sədri Fəzail Bağırov bildirib ki, respublikamızda dəmir yolunun inkişaf tarixinin böyük bir hissəsi Heydər Əliyevin adı ilə bağlıdır: "Məhz Ümummilli Liderimizin diqqət və qayğısı sayəsində ötən əsrin sonlarında dəmir yolu infrastrukturu öz tərəqqisinin zirvəsinə çatmışdır. Ulu Öndər istər Azərbaycan Respublikasında, istərsə də keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən bu sahənin fəaliyyətini daim diqqət mərkəzində saxlamış və onun inkişafına xüsusi önəm vermişdir. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə keçmiş SSRİ-nin ən böyük çeşidləyici stansiyalarından olan Şirvan stansiyası, Yevlax-Balakən, Güzdək-Qaradağ dəmir yolu xətləri, Azərbaycan Dövlət Dəmir Yolunun öz fəaliyyətini həyata keçirməsində çox mühüm əhəmiyyət daşıyan digər dəmir yolu stansiyaları inşa edilərək istismara verilmişdir. Görülən işlərin nəticəsində dəmiryolu vasitəsilə daşınan yüklərin həcmi həmin dövrdə 80-90 milyon tona çatdırılmışdır".



**"Xalqın tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gətirilən Heydər Əliyev Azərbaycanın dəmir yolu infrastrukturunun inkişafını diqqət mərkəzində saxlamışdır. Ümummilli Liderin siyasi xəttinin layiqli davamçısı, dövlətimizin başçısı cənab İlham Əliyev dəmir yolu sistemində də ardıcıl tədbirlər həyata keçirmişdir. Ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycan dəmir yollarının beynəlxalq standartlara uyğun qurulması istiqamətində reallaşdırılan bir sıra mühüm layihələr dəmir yolu infrastrukturunun inkişafını sürətləndirmişdir. Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin gələcəkdə normal fəaliyyət göstərməsini və Azərbaycan üzərindən yük axınının dəfələrlə artmasını təmin edə biləcək əsas işlərdən biri də yerli dəmiryollarının yenidən qurulması, əsaslı təmiri və dəmir yolu parkının yenilənməsidir. 2015-2019-cu illər ərzində "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 841,7 kilometr yol və 875 dəst yoldəyişən əsaslı təmir olunub, 3101 ədəd yeni yük vaqonu, 32 ədəd yeni lokomotiv alınıb. Ölkə rəhbəri "Azərbaycan Dəmir Yolları" QSC-nin qarşısında yaxın illərdə reallaşdırılması nəzərdə tutulan bir sıra mühüm vəzifələr qoyub. Bunlardan biri də mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsidir", - F.Bağırov qeyd edib.**

Onun sözlərinə görə, ölkəmizin dəmir yollarında aparılan bütün bu quruculuq işləri Azərbaycan iqtisadiyyatının güclənməsinə əlverişli zəmin yaradır.

**Digər çıxış edənlər Ulu Öndərin xalqımızın həyatındakı xilaskar missiyasından, ordu quruculuğundan, iqtisadi uğurlarından, nəqliyyat infrastrukturunun inkişafındakı xidmətlərindən danışıblar.**

# *İctimai Şura üzvləri ilə sertifikatlaşdırma prosesi müzakirə edilib*



**Mayın 13-də Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının üzvləri ilə Təhsil Nazirliyi yanında İctimai Şura arasında görüş keçirilib.**

Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının sədri, təhsil nazirinin müavini Muxtar Məmmədov sertifikatlaşdırma prosesinin məqsədi barədə fikirlərini bölüşərək, prosesin təhsilverənlərin peşəkar inkişafında əhəmiyyətli rol oynayacağını vurğulayıb.

M.Məmmədov sözügedən prosesə ilkin mərhələdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Quba-Xaçmaz və Gəncə-Daşkəsən Regional Təhsil idarələrinə tabe olan, həmçinin Təhsil Nazirliyinin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimlərinin cəlb olunacağı barədə məlumat verib.

**Sertifikatlaşdırma prosesinin uzunmüddətli hədəflərinin olduğunu bildirən nazir müavini sertifikatlaşdırmanın təhsilverənlər üçün özünüinkişaf aləti olmasını, nəticələrin təhsil sisteminə böyük töhfələr verəcəyini qeyd edib.**

Daha sonra Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri tərəfindən təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı ictimaiyyət arasında düzgün kommunikasiyanın qurulmasına dair məsələlər müzakirə olunub.

Görüşdə İctimai Şura üzvlərinin rəy və təklifləri dinlənilib, çoxsaylı sualları cavablandırılıb.

**İctimai Şuranın üzvü, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə sertifikatlaşdırma prosesini təhsilverənlərin peşəkarlıq imkanlarını artırmaq baxımından əhəmiyyətli, stimullaşdırıcı addım adlandırıb. Onu da qeyd edib ki, bu proses ədalətlə aparılmalı, təhsil işçiləri arasında kütləvi işsizliyə səbəb olmamalıdır.**

# AHİK SƏDRİ QAZİ AİLƏSİNİ ZİYARƏT EDİB

## Müharibə bitdi, amma həmkarlar ittifaqının müharibə iştirakçılarına, Vətən uğrunda canını fəda etmiş igid oğul və qızlarımızın ailələrinə qayğısı bitmədi



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və sədrin müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin (DİİXİHİ RK) sədri Hikmət Osmanov Birinci Qarabağ müharibəsi qazisi, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Fikrət İsayevi ziyarət ediblər.**

Görüş zamanı Səttar Möhbalıyev bildirib ki, müharibə iştirakçılarının sosial məsələlərinin həlli istiqamətində görülmüş işlər sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır. Onun sözlərinə görə, Azərbaycan xalqı mübariz oğul və qızlarının şücaətini hər zaman yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Qeyd edib ki, həm Birinci, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərə mənzillər, avtomobillər verilir, onlar üçün davamlı olaraq hər cür şərait yaradılır.

**AHİK sədri əlavə edib ki, 44 günlük Vətən müharibəsində yenilməz Azərbaycan Ordusunun qəhrəmanlığı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətini iflasa uğratdı, Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.**

AHİK sədrinin müavini, DİİXİHİ Respublika Komitəsinin sədri **Hikmət Osmanov** dedi ki, həmkarlar ittifaqı Vətən müharibəsi günlərində, postmüharibə dövründə döyüşən oğullarımızın, onların ailə üzvlərinin qayğısı ilə yaşayıb. Şəxsən hörmətli sədrimiz Səttar Möhbalıyevin tapşırığı ilə Azərbaycanın bütün sahə həmkarlar ittifaqı hər şey cəbhə üçün şüarı altında səfərbər olunmuşdu.




**Müharibə bitdi, amma həmkarlar ittifaqının müharibə iştirakçılarına, Vətən uğrunda canını fəda etmiş igid oğul və qızlarımızın ailələrinə qayğısı bitmədi. Biz, Səttar Möhbalıyev başda olmaqla, ilboyu sizin yanınızdayıq. Mənəvi və maddi köməyimizi əsirgəmirik. Sizinlə birlikdə şəhidlərimizin övladlarının, qazilərimizin ad günlərini qeyd edir, imkanımız və səlahiyyətimiz çərçivəsində ehtiyaclarını ödəməyi vicdan borcumuz bilirik.**

**Fikrət İsayev** bu qayğı və diqqəti öz timsalında daim hiss etdiyini dedi. O, şəhidlərimizin, qazilərimizin, digər müharibə iştirakçılarının fədakarlığını yüksək qiymətləndirdiyinə görə Ali Baş Komandan İlham Əliyevə, qaziləri əzizləri qədər sevən, problemlərini müntəzəm öyrənib həllinə yönəlik tədbirlər görən həmkarlar ittifaqına, şəxsən Səttar müəllimə, dövlətimizin ona bağışladığı mənzil üçün zəruri avadanlıqlar, mebellər alıb hədiyyə edən Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə təşəkkürünü bildirdi.

**Qeyd edək ki, Fikrət İsayev Birinci Qarabağ müharibəsi zamanı Ağdam və Füzuli istiqamətlərində gedən döyüş əməliyyatlarında yüksək peşəkarlıqla iştirak edib, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərib, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirib. O, döyüşlərin birində hər iki gözündən xəsarət alaraq görmə qabiliyyətini itirib, I qrup əlildir. Döyüşlər zamanı göstərdiyi qəhrəmanlıqlara görə, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.**

# Mart və aprel aylarında 3 və 7 günlük kurslar keçirilib




**Həmkarlar ittifaqı kadr və fəallarının hazırlanması üzrə 2022-ci il üçün təsdiq edilmiş təqvim planına uyğun olaraq mart və aprel aylarında 3 və 7 günlük kurslar keçirilib.**

Kurslar aşağıdakı mövzular ətrafında təşkil edilmişdir: "Müvəffəqiyyətli lider - müvəffəqiyyətli həmkarlar ittifaqı" gənc həmkarlar ittifaqı fəalları, təlimatçılar, həmkarlar ittifaqı şura sədrləri, üzvləri - (35 nəfər) iştirak etmişdir, "Kollektiv müqavilə vasitəsilə əməkhaqqının tənzimlənməsi" (62 nəfər) və "Kollektiv danışıqların aparılmasının texnologiyası" (33 nəfər) həmkarlar ittifaqı sədr və fəalları üçün, "Fərdi və kollektiv əmək mübahisələri" əmək mübahisələrinə baxan komissiya üzvləri, məhkəmədə fərdi əmək mübahisələrinə baxılması həmkarlar ittifaqı komitə sədrləri, fəalları üçün (18 nəfər).

Bu aylar ərzində ümumilikdə 148 nəfər onlayn qaydada təlim keçib.

**Gənclər üçün seminar təşkil edərkən qarşımıza onlara necə uğurlu həmkarlar ittifaqı rəhbəri olmağı, motivasiya etməyi, liderin ideal portretinin nədən ibarət olduğunu, həmkarlar ittifaqı imicinin formalaşdırılmasının əsas meyarlarını məqsəd qoymuşuq. Bu məqsədə nail olmaq üçün seminarın proqramına aşağıdakı mövzular daxil edilmişdir: "İşəgötürənlə həmkarlar ittifaqı təşkilatının rəhbəri arasında hazırlıq və danışıqların psixoloji aspektləri", "Əməkhaqqı sahəsində dövlət siyasətinin məqsəd və vəzifələri. Respublikada əməkhaqqı vəziyyəti", "Yaşayış səviyyəsi anlayışı (minimal əməkhaqqı, yaşayış miniumu, minimal istehlak səbəti", "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi - məşğulluq, əmək və sosial müdafiə siyasəti, könüllü fəaliyyətin yeni uğurları", "AR Əmək Məcəlləsi: sazişin və kollektiv müqavillə bağlanmasının ümumi qaydaları haqqında", "Kollektiv danışıqların aparılmasının təşkilatı-texnologiya məsələləri", "Əməkhaqqının indeksasiyası üzrə danışıqlar".**

Seminar müzakirələr, təcrübə mübadiləsi şəklində keçirilib. Seminara mühazirəçi qismində həmkarlar ittifaqı işçiləri və dövlət qurumlarının mütəxəssisləri dəvət olunmuşdular.

**Məlum olduğu kimi, həmkarlar ittifaqı təşkilatının fəaliyyətində həmkarlar ittifaqı üzvlərinin sosial-iqtisadi və hüquqi mənafelərinin müdafiəsində kollektiv müqaviləyə mühüm vasitə kimi böyük yer ayrılır. Bu barədə dinləyicilərin biliklərini daha da artırmaqdan ötrü "Kollektiv müqavilə vasitəsilə əməkhaqqının tənzimlənməsi" və "Kollektiv danışıqların aparılmasının texnologiyası" mövzularında mühazirələr təşkil etdik.**

Mövzulara əməkhaqqının tənzimlənməsində kollektiv müqavilənin rolunu açacaq suallar da daxil edilmişdi.

Mövzunun mənimsənilməsini təmin etmək məqsədilə mühazirələrdən sonra qruplar üzrə əməkhaqlarının artırılması ilə bağlı həmkarlar ittifaqı komitəsinin və işəgötürənin danışıqların aparılması prosesinə dair işgüzar oyun keçirildi .

Daha bir işgüzar oyun qadınlar üçün iş vaxtının azaldılması məsələsinin kollektiv müqaviləyə daxil edilməsi barədə oldu. Bu oyun qruplar arasında müzakirələr formatında aparıldı. Bildirək ki, işəgötürənlər və həmkarlar ittifaqı təşkilatının nümayəndələri kurslarda çox fəal iştirak etdilər.

**Bildiyiniz kimi, kollektiv müqavilə bağlayarkən və kollektiv danışıqlar apararkən münaqişələrin yaranması qaçılmaz olur. Bununla əlaqədar kurslarda təkcə sosial- əmək münasibətləri deyil, həm də bu problemlərin psixoloji və sosioloji aspektləri müzakirə edildi.**

Respublikada əhalinin fəaliyyətinin sosial-iqtisadi problemlərinin həllinə yönəlmiş yeni qurumların yaradıldığını nəzərə alaraq kurslar üzrə proqrama "DOST" Agentliyinin fəaliyyəti ilə tanışlıq da daxil edilmişdi.

"Müəssisələrdə və təşkilatlarda işçi və işəgötürən arasında əmək mübahisələrinin yarandığı məsələlərin həlli" mövzusu da aktual olduğundan proqram hazırlanarkən ona xüsusi diqqət yetirilmişdi. Mütəxəssislər tərəfindən belə situasiyalarda həmkarlar ittifaqının mövqeyi şərh edilmişdi.

**Kurslar göstərdi ki, kollektiv müqavilələrin bağlanması, kollektiv danışıqların aparılması, həmkarlar ittifaqı liderlərinin formalaşdırılması, motivasiya, fərdi və kollektiv mübahisələrlə bağlı məsələlərin həlli və sairə bütün işəgötürənlər üçün aktualdı. Çünki onlar bir çox məsələlərlə bağlı müvafiq məlumatlara malik deyillər.**



# "Şəhid Ailələri və Müharibə Veteranlarına Yardım Mərkəzi" yaradılıb

**"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində (QSC) "Şəhid Ailələri və Müharibə Veteranlarına Yardım Mərkəzi" yaradılıb. Mərkəzin Əsasnaməsinin layihəsinin müzakirəsinə həsr olunmuş iclas keçirilib. İclasda Cəmiyyətin və Metropoliten İşçiləri Həmkarlar İttifaqının (MİHİ) rəhbərliyi, işçiləri və bu sistemdə çalışan 337 şəhid ailəsinin nümayəndələri iştirak ediblər.**

MİHİ-nin sədri **Arif Mərdanov** və QSC sədrinin müavini **Hidayət Məmmədov** çıxış edərək bu layihənin əhəmiyyətindən danışdılar. Onu dövlətimizin, QSC-nin şəhid ailələrinə, I, II Qarabağ müharibəsi iştirakçılarına qayğının daha bir təzahürü adlandırdılar. Digər çıxışlarda da Mərkəzin şəhid ailələrinin, müharibə iştirakçılarının sosial vəziyyətinin yaxşılaşdırılmasında oynayacağı rolu yüksək qiymətləndirildi. Layihə ilə bağlı bəzi təkliflər verildi. 5 nəfərdən ibarət İdarə Heyəti seçilməsi qərara alındı. İclas iştirakçılarının təklifi ilə İdarə Heyətinə daha 2 nəfər - Arif Mərdanov və Hidayət Məmmədov da daxil edildi. Həmçinin qərara alındı ki, İdarə Heyəti iki ayda bir dəfədən az olmayaraq daxil olmuş müraciətlərə baxmalı və qərar verməlidir. Müəssisədə çalışan şəhid ailələrinin üzvləri və veteranlar il ərzində bir dəfə tam tərkibdə toplaşaraq İdarə Heyətinin hesabatını dinləməli və qiymətləndirməlidirlər.

Mərkəzin əsas maliyyə mənbəyi QSC və MİHİ-nin ayırdığı vəsait olacaq. MİHİ tərəfindən açılmış bank hesabına hər kəs könüllü olaraq maliyyə vəsaiti köçürə bilər və qanunla qadağan edilməyən digər köçürmələr də mümkündür.

**Xatırladaq ki, Zəfərlə başa çatan Vətən müharibəsinin 24 qazisi və şəhid ailəsinin üzvü metropolitendə işlə təmin olunub.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Azərbaycanda Qida İtkisi və İsrafının qarşısının alınması üzrə strategiya hazırlanıb




**Mayın 17-də Bakıdakı "Hyatt Regency" otelində Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən hazırlanmış Azərbaycanda qida itkisinin qarşısının alınması, azaldılması və monitorinqi üzrə Milli Strategiyanın layihəsinin müzakirəsinə həsr olunmuş seminar keçirilib.**

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri, dövlət rəsmiləri, özəl sektorun, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, digər vətəndaş cəmiyyəti təşkilatlarının və elm müəssisələrinin nümayəndələri iştirak ediblər.

**Seminarda edilən çıxışlarda qeyd olunub ki, bu strategiyanın həyata keçirilməsi Azərbaycanda milli qida sisteminin səmərəliliyinin artırılmasına səbəb olacaq. Daha yaxşı ərzaq və qida təhlükəsizliyi təmin ediləcək. Gücləndirilmiş gəlir və dolanışıq vasitəsilə kiçik və orta istehsalçılar fayda götürəcəklər. İqlim dəyişikliyinin milli ərzaq sisteminə təzyiqi azaldılacaq.**

Bildirildi ki, strategiyaya Qida İtkisi və İsrafının (QİI) idarə edilməsinin tənzimlənməsinin təkmilləşdirilməsi, qida tədarük zəncirlərinin səmərəliliyinin artırılması, qida məhsullarının bərpası və yenidən bölüşdürülməsi sisteminin yaradılması, qida dəyər zənciri iştirakçıları və ictimaiyyət arasında məlumatlılığın artırılması və QİI-yə nəzarət etmək və hesabat vermək tədbirləri daxildir.

**Milli seminar Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı və Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşə Nazirliyinin maliyyə dəstəyi ilə keçirilib.**

# TƏLƏBƏLƏRƏ ÖHDƏLİKSİZ KREDİT

**"Təhsil Tələbə Krediti Fondunun (TTKF) yaradılması olduqca mütərəqqi, gənclərin təhsilə əlçatanlığının təmin olunmasına xidmət edən mühüm bir addımdır. Bu, təhsilə və gələcəyimizə göstərilən dövlət qayğısının təcəssümüdür".**

Bu fikir **TTKF-nin İdarə Heyətinin sədri Araz Paşayevin** Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşündə səsləndirilib.



Görüşdə **ali təhsil ocağının rektoru Elbrus İsayev** ölkəmizdə aparılan təhsil islahatları, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, TTKF-nin yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir.

**Araz Paşayev fondun yaranma tarixi haqqında geniş məlumat verib. Qeyd edib ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Təhsil tələbə kreditinin növləri, tələbə krediti almaq üçün verilən tələblər, kreditdən istifadə hüququ, kreditin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər müəyyən edilib. Təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur.**

A.Paşayev deyib ki, fondun fəaliyyəti ölkə üzrə ödənişli və əyani təhsil alan tələbələrə aid olmaqla, 44 ali təhsil müəssisəsini və 55 orta ixtisas təhsil müəssisəsini əhatə edir. Ölkə üzrə təhsil alan 266 min nəfər tələbədən 146 min nəfəri ödənişli əsaslarla oxuyur. Krediti almaq üçün tələbə girov, zamin və sair öhdəliklərlə yüklənmir. Kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınmaqla yüksək nəticə göstərilməsi ilkin şərtdir. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

**Universitetin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun çıxışı dinlənildikdən sonra tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.**

# İşçilərin sağlamlığı ilboyu diqqətdə saxlanılmalıdır



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı (DİİXİHİ) Respublika Komitəsi Saatlı rayonunda Gənclər Mərkəzində əməyin mühafizəsi ilə əlaqədar seminar keçirib. Daha doqquz ətraf rayonun sahə həmkarlar ittifaqı sədrlərinin və fəallarının cəlb olunduğu tədbiri giriş sözü ilə Respublika Komitəsinin sədr müavini Əbülfəz Mehtiyev açıb. Deyib ki, bildiyiniz kimi, Beynəlxalq Əmək Təşkilatı 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Gününü "Pozitiv, təhlükəsiz və sağlam həyat mədəniyyəti üçün birgə fəaliyyət" devizi altında keçirməyi tövsiyə etmişdi. Sizin də iştirakınız ilə həmin gün kütləvi şəkildə, yüksək səviyyədə qeyd olundu.**

AHİK-in müəllifi olduğu "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" müsabiqəsinə yekun vuruldu. Qaliblərə respublika komitələrinin, AHİK-in diplomları, hədiyyələri təqdim olundu. Bu tədbirlərə işəgötürənlərin də rəhbərliklərindən nümayəndələr dəvət edilmişdi.

**Təbii ki, sağlam, təhlükəsiz iş şəraitinə nail olmaq bir gün keçirilən tədbirlə başa gəlmir. Bu, ilboyu davam edən prosesdir. İnsanların sağlamlığı daim diqqət mərkəzində olmalıdır. Biz, Respublika Komitəsi olaraq, hazırladığımız cədvələ əsasən, yerli təşkilatların iştirakı ilə müntəzəm paytaxtda, regionlarda fəaliyyət göstərən üzv təşkilatlarda ezamiyyətdə oluruq. Yoxlamalar aparırıq, reydlər, baxışlar, seminarlar keçiririk. Məsləhətlər, tövsiyələr verir, əməli köməklik göstəririk. Belə sıx əlaqəyə görədir ki, sahə idarələri, təşkilatları üzrə vəziyyət bizə gün kimi aydındır. Əməyin təhlükəsizliyi qüsurlu halda təşkil olunmuş müəssisələrin rəhbərlərinə hazırladığımız arayışlardan çıxarışlar göndəririk. Əgər həmin müəssisə rəhbərliyi problemi aradan qaldırmaq gücündə deyilsə və ya laqeyd yanaşırsa, daha yuxarı strukturlara yazılı şəkildə müraciət edirik.**

Problemin aradan qaldırılmasına nail olana qədər tələblərimizi dayandırmırıq.

Əbülfəz müəllim sözünə davam edərək dedi ki, əməyin mühafizəsinə dair elə problemlər də var ki, onu elə işçilərin özləri yaradır. İşçilərin bir çoxu xəsarətə öz səhlənkarlığı, təhlükəsizlik qaydalarını bilməmələri və ya onlara əməl etmədikləri ucbatından düçar olurlar. Digər hallar isə müdiriyyətin əməyin mühafizəsi üçün ayrılmış vəsaitin istiqaməti üzrə yönəltmədiyindən iş yerlərində təhlükəli vəziyyət yaranır.

Rayon və idarə həmkarlar ittifaqları belə halların baş verməməsi üçün maarifləndirmə işlərini gücləndirməli, gecikmədən həyacan təbili çalmalıdır.

Ə. Mehtiyev çıxışda digər tövsiyələrini də diqqətə çatdırdı.

**Seminarda AHİK-in Əməyin mühafizəsi şöbəsinin müdir müavini Əli Mədətov, DİİXİHİ Respublika Komitəsinin baş mütəxəssisi Valeh Nağıyev, Dövlət Əmək Müfəttişliyinin Mil-Muğan Regional Əmək Müfəttişliyinin rəis müavini Hafiz Miriyevin də çıxışları dinlənildi.**

**Seminar sual-cavabla davam etdi.**

# İanə sertifikatları verildi




**Fövqəladə Hallar Nazirliyi (FHN) İşçilərinin Həmkarlar İttifaqının təşkilatçılığı və Qarabağ Dirçəliş Fondunun dəstəyi ilə Beynəlxalq Qadınlar Günü münasibətilə işğaldan azad olunmuş Zəngilan rayonunun ərazisində 44 günlük Vətən müharibəsində canlarını Vətən uğrunda fəda vermiş şəhidlərin analarının adına həyata keçirilmiş ağacəkmə aksiyasının ianə sertifikatları nazirliyin regional mərkəzlərinin və əhatə dairəsinə aid rayon (şəhər) icra hakimiyyətlərinin əməkdaşlarının iştirakı ilə şəhid analarına təqdim edilib.**

Görüş və tədbirlərdə iştirak edən FHN-in əməkdaşları tərəfindən ağacəkmə aksiyası keçirilib.

Qeyd edilib ki, Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı tərəfindən İkinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə şəhid analarının adından işğaldan azad olunan ərazilərdə ətraf mühitə vurulan zərərin aradan qaldırılması, ekoloji tarazlığın bərpasına töhfə vermək məqsədilə Zəngilanda meşə massivinin salınması layihəsi çərçivəsində 5500 ağac ianə edilib.

***İlkin olaraq apreldə bir qrup şəhid anasının, Qarabağ Dirçəliş Fondunun və Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı nümayəndələrinin iştirakı ilə 300 ağac tingi əkilib.***

Görüşlərdə iştirak edən məsul şəxslər işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad olunmasında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətindən və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin qəhrəmanlıq və fədakarlıqlarından geniş söhbət açıblar. Şəhid anaları ilə görüşlər zamanı Prezident İlham Əliyevin rəhbərliyi və göstərişi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq, quruculuq və yenidənqurma işlərindən, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan, onların rifah halının yüksəldilməsi və mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması sahəsində görülən işlərdən ətraflı danışılıb.

**Tədbirlərdə çıxış edən şəhid anaları onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.**

# Fəxri diplom təqdim olundu



**Üzvlərinin sayının artırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi (KTN BHİK) fəaliyyətini davam etdirir. Rayonlarda dövlət aqrar inkişaf mərkəzlərinin (DAİM) müəssisə rəhbərləri ilə görüşlər keçirilir. Onlara həmkarlar ittifaqı təşkilatlarının əhəmiyyəti, müəssisədə yeri və rolu haqqında məlumat verilir. Həmçinin işçilərin təşəbbüsü ilə müəssisələrdə yeni həmkarlar ittifaqı komitələri təsis olunur.**

Belə görüşlərdən biri Şamaxı rayonunda baş tutub. Rayon DAİM-in direktoru Etibar Muradlı tədbir iştirakçılarına rayonda aqrar sahənin vəziyyəti, fermerlərə göstərilən dövlət dəstəyi haqqında geniş məlumat verib.

KTN BHİK sədri Fuad Məmmədov həmkarlar ittifaqı təşkilatlarının vəzifə və səlahiyyətlərindən danışaraq təmsil etdiyi qurumun işçilərin əmək həyatındakı rolundan bəhs edib, bu istiqamətdə icra olunan layihələr haqqında danışıb.

Qeyd edək ki, görüşdə "Şirvan şərabları" MMC-nin, "Mədrəsə Şərab"ın və "Şamaxı Aqropark"ın rəhbərləri, həmçinin respublikanın ən böyük kənd təsərrüfatı müəssisələrindən olan "Aqro-Dairy"nin regional nümayəndəliyinin rəhbəri iştirak ediblər. Yaxın vaxtlarda qeyd olunan müəssisələrdə də həmkarlar ittifaqı komitələrinin təsis olunması nəzərdə tutulur.

**Tədbirin sonunda DAİM-in direktoru Etibar Muradlıya həmkarlar ittifaqlarının həyatındakı xidmətlərinə görə Fəxri Diplom təqdim olunub.**

# Vətəndaşların keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığını təmin etmək üçün...

**Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) birgə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: "Əhalinin sağlamlığının qorunması sahəsində həyata keçirilən fəaliyyətlərin effektivliyini artırmaq, səhiyyə sisteminin maliyyə dayanıqlılığını və vətəndaşların keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 13 may 2022-ci il tarixində Fərman imzalanmışdır.

Fərmana əsasən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə səhiyyə sisteminin iştirakçılarını və aidiyyəti dövlət qurumlarını cəlb etməklə Səhiyyənin Transformasiyası Mərkəzinin İşçi qrupunu yaratmaq tapşırılmışdır. Səhiyyənin Transformasiyası Mərkəzinin yekun hədəfi Azərbaycan vətəndaşının səhiyyə sistemindən məmnunluğunun artırılmasına yönəlib. Bu baxımdan səhiyyə sisteminin əsas iştirakçılarının əlaqəli fəaliyyətini təmin etmək məqsədilə normativ-hüquqi bazanın və idarəetmə modellərinin təkmilləşdirilərək tətbiqinə ehtiyac vardır. Mərkəz tərəfindən qarşısına qoyulan tapşırıqların icrası ilə bağlı mövcud vəziyyət, eləcə də beynəlxalq təcrübə təhlil olunaraq İşçi qrupun üzvləri ilə razılaşdırılmış təkliflər təqdim olunacaq.

**Fərmanla elmi-tədqiqat müəssisələri Səhiyyə Nazirliyinin tabeliyinə verilmişdir. Elmi-tədqiqat institutları, elmi mərkəzlər təhsil prosesində klinik baza rolunu oynayır, rezidentlərin hazırlanmasında və həkimlərin təkmilləşdirilməsində bu müəssisələrin rolu əvəzsizdir.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin fəaliyyətinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması və səhiyyə sisteminin davamlı inkişafı əlavə insan resurslarına ehtiyac yaratmışdır. Səhiyyə sistemində fəaliyyət göstərən tibb işçiləri ilə ardıcıl işin aparılması, sistemin davamlı təkmilləşdirilməsi, fəaliyyətin günün tələblərinə uyğun qurulması üçün nazirliyin aparatının ştat vahidlərinin sayı 130-a çatdırılmışdır.

Fərmana əsasən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (bundan sonra - TƏBİB) fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Müşahidə Şurası həyata keçirəcək. TƏBİB-in Müşahidə Şurası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədrindən, Azərbaycan Respublikası səhiyyə nazirinin müavinindən, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədrindən ibarət tərkibdə fəaliyyət göstərir. TƏBİB-in fəaliyyətinə cari rəhbərliyi isə TƏBİB-in Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor və onun 3 müavini həyata keçirir.

**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini TƏBİB müəyyən edir".**

# Tanış olun: Müsabiqə qalibləri



## Vətən sevgisi o dərəcədə üstün idi ki, başımıza yağan mərmilərə məhəl qoymurduq...

**Bugünkü yazımın qəhrəmanı Təhmin İntiqam oğlu Babayevdir. Vətən müharibəsi qazisi olan Təhminin ismi Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparan tarixi qəhrəmanlar siyahısına yazılıb. O, həm Aprel döyüşlərində, həm də II Qarabağ müharibəsində öz əzmi, iradəsi, döyüşçü məharəti ilə fərqlənən igidlərimizdəndir. 1993-cü il oktyabrın 22-də Cəlilabad rayonunun Hacıismayıllı kəndində anadan olan T.Babayev orta məktəbi bitirdikdən sonra 630 balla Bakı Dövlət Universitetinin Tətbiqi-riyaziyyat və kibernetika fakültəsinə daxil olub. Universiteti bitirdikdən sonra 2016-cı ildə Füzuli rayonunda həqiqi hərbi xidmət göstərib, eyni zamanda 4 gün davam edən Aprel döyüşlərində öz rəşadəti ilə seçilib. Xalqımızın birlik, vəhdət göstərdiyi o böyük sınaq günlərində - Vətən müharibəsində isə Təhmin yenidən ordumuzun ön sıralarında döyüşlərə qatılır. Təhminlə görüşüb, onun döyüş yolu haqqında söhbətlərinə qulaq asdım. O, müharibənin şiddətindən, hərbçi yoldaşlarının cəsurcasına vuruşmağından, eyni zamanda torpaqlarımızın hər qarışını işğaldan azad edərkən necə qürurlanıb, sevincdən göz yaşları tökdüklərindən danışdı: Cəbhə mənim üçün Füzulidən başlandı. Düşməni qova-qova Cəbrayıl rayonunun ərazisinə yetişdik. Cəbrayılda yolayrıcı deyilən yer var idi. Bu ərazi uğrunda bir neçə gün şiddətli döyüşdük, itkimiz çox oldu. Cəbrayılın mərkəzində 3 gün mühasirədə qaldıq. Təminatımız, demək olar ki, tükənmişdi. Ətrafımıza hər 10-15 dəqiqədən bir, ən azı 15 minamyot düşürdü. Amma yenə də nə döyüş yoldaşlarımda, nə də məndə ruh düşkünlüyü yaranmırdı. Komandir deyirdi ki, burada nə olur-olsun, siz bilin ki, Cəbrayıla girən ilk qəhrəmanlar olaraq adınız Azərbaycanın tarixinə yazılacaq. Bu Vətən, bu torpaq sizi heç vaxt unutmayacaq. Onun bu sözləri bizi daha da ruhlandırırdı. Özümüzlə fəxr edirdik. Həqiqətən də 30 il bizdən uzaq qalan, mənfur düşmənin tapdağı altında əzilən torpaqlarımıza ayaq basanda çox qəribə hisslərə bürünürdük. Onlar bu yerləri viran qoymuşdular. Sanki torpaq dil açıb bizə nə qədər ehtiyacı olduğunu söyləyirdi. İndi düşünəndə təəccüb hissi keçirdirəm. Vətən sevgisi o dərəcədə üstün idi ki, başımıza yağan mərmilərə məhəl qoymurduq. Hamıda, sadəcə, bir istək var idi: irəli getmək, sağ qalaraq sona qədər vuruşmaq istəyi.**

### *Bir istək var idi... irəli getmək, sağ qalaraq sona qədər vuruşmaq istəyi*

Düşmən isə daha çox uzaqdan döyüşə üstünlük verirdi, onlar qarşı-qarşıya vuruşmaqdan çəkinirdilər. Ona görə əsasən hava hücumundan və minamyotlardan, ağır artilleriyadan istifadə edirdilər. Bəli, mühasirədəydik və onlar üstümüzə qırıcı təyyarə qaldırdılar. Bizim hərbi hava qüvvələri 4 tank və 150-yə yaxın canlı qüvvə ilə hücuma keçən düşmənin təyyarələrindən birini, tanklarından isə ikisini vurduqdan sonra onlar şəxsi heyəti ilə birgə geri dönməyə məcbur oldular. Sonra bizə məlum oldu ki, bu ərazidə onların hərbçilərinin qaldığı hərbi şəhərcik yerləşir. Bir neçə hərbçisi orada qalıbmış. Ona görə müqavimət göstərirdilər ki, onları buradan çıxartsınlar. Lakin bu, mümkün olmadı. Bir müddət sonra bizim toplanma məntəqəmizi vurduqlarını eşitdik. Komandirimiz polkovnik-leytenant Rəşad Quliyev və digər hərbçi yoldaşımız orada şəhid oldu. Biz isə, komandirimizin əvvəlcədən bizə verdiyi komandaya uyğun olaraq, tutacağımız mövqelərə, yüksəkliyə doğru hərəkət edirdik. Həmin gün axşam, səhv etmirəmsə, oktyabrın 15-i 25 nəfərlik tağımla, hərbi hava və xüsusi təyinatlı qüvvələrlə birgə buradakı strateji yüksəkliyi tutduq. Beləliklə, Cəbrayılın digər kəndlərini də azad etdikdən sonra Qubadlıya doğru hərəkət etməyi planlaşdırdıq. Oktyabrın 19-u gecə saat 2- də yola çıxdıq və saat 5 radələrində biz Qubadlının girişindəydik. Təxmini 20 km. piyada yol qət etmişdik və yorğun olduğumuz üçün orada 1 saat dincəlmək qərarına gəldik. Birdən komandir mövqeyimizi dəyişmək əmri verdi. Biz oranı dərhal tərk etdik. Çünki düşmən pilotsuz uçuş aparatı ilə yerimizi təyin etmişdi. 10 dəqiqə sonra isə həmin məkan qrat atəşinə tutuldu. Biz isə həmin gün Qubadlıya girdik və üçrəngli bayrağımızı orda dalğalandırdıq. Düşmən yaxınlaşdığımızı görüb bu dəfə də Həkəri çayının üzərindəki körpünü partlatdı. Və onlar çayın ətrafını tank əleyhinə minalarla doldurmuşdular. Biz məcbur olub çayın içərisindən irəliləyərək oktyabrın 20-də artıq hücuma keçdik. Düşmənin 500-600 metr yaxınlığında idik. Lakin onlar əraziyə daha hakim idilər və daha yaxşı gizlənə bilirdilər. Biz isə açıq döyüşə girmişdik hər tərəfdən minamyot mərmiləri yağırdı. Ayağa dura bilməzdik, sürünərək irəliləyirdik. Ətrafımızda biçilmiş otlar var idi və minamyotlar düşdükcə onlar yanırdı. Tüstü və yanğın isə sürünərək irəliləməyimizə mane olurdu. Bu zaman döyüş yoldaşım dedi ki, buşlatının içindəkiləri boşalt mənə ver, yanğını onunla söndürüm. Mərmilər yağırdı, ayağa qalxa bilməzdim. Sağ tərəfimi qaldırdım ki, buşlatı çıxardım. Bu zaman həmin tərəfimdən 4-5 metr yaxınlığa minamyot düşdü. Həmin an heç nə hiss etmədim. Amma sağ ayağımın yuxarı hissəsinə qəlpə girmişdi. Bir müddət sonra hərəkətsiz qaldığımı görən döyüş yoldaşlarım Amin və Nahid mənə yaxınlaşdılar. Onlar məni döyüş meydanından çıxarmağa çalışırdılar. Amma yenə də başımızı qaldıra bilmir, sadəcə sürünürdük. Amin çəkməmin ipini çıxarıb qan itirməyim deyə ayağımı möhkəm sıxmışdı. Mən isə öləcəyimi düşünürdüm. Və sadəcə, o anda ailəmi, geridə qoyduqlarmı düşünməyə başladım. Aprel döyüşlərində çox məyus olmuşdum ki, torpaqlarımızı işğaldan azad edə bilmədik. İndi isə biz azadlığa nail oluruq, amma mən o torpaqları görməyəcəyəm deyə təəssüf hissi keçirirdim. Vətən, ailə sevgisi mənə yenidən səbir və güc verdi elə bil. Susuz və yaralı olmağım artıq məni huşsuz hala salırdı, amma yenə də möhkəm olmağa çalışırdım. Yoldaşlarım məni dağın yamacında 10-a yaxın şəhid olan əsgər yoldaşımın yanına uzadıb döyüş zonasına qayıtdılar. Sonra onlar irəliləyirdilər, məni isə ehtiyada olan yoldaşlarım dərənin içindən çox çətinliklə çıxarda bildilər. Döyüş maşınları ilə Füzuli hospitalına gətirdilər. Daha sonra 3 ay Silahlı Qüvvələrin Baş Klinik Hospitalında qaldım. Çünki yara 15 sm. dərinliyində idi. Sinir zədələnmişdi deyə sağ ayağımı hiss etmirdim. 1 il 6 aydır müalicə alıram. Az-az da olsa ayağımda sağalma, yaxşılaşma hiss olunur".



**Təhmin qeyd etdi ki, o, 2019-cu ildən "Azərişıq" Səhmdar Cəmiyyətində proqramçı olaraq fəaliyyət göstərir. İşlədiyi idarənin istər rəhbərliyi, istərsə də kollektivi onunla fəxr edir və müalicəsinin gedişatında lazımi dəstəyi göstərirlər. Vətənpərvər Təhmin "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.**

Həmçinin bu günlərdə T.Babayev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən peşəsində əldə etdiyi nailiyyətlərə görə "İlin peşəkar gənci" fəxri adını aldı.

**O bu medalları və fəxri adları qürurla daşıdığını və buna görə ilk növbədə uşaq yaşlarından onu vətənpərvər ruhunda böyüdən valideynlərinə minnətdar olduğunu dedi. Daha sonra isə işlədiyi müəssisənin və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyinə təşəkkürünü bildirdi.**

**Əsli TELMANQIZI**

## İşçilərin sağlamlığı, iş şəraitinin təhlükəsizliyi həmişə ön planda olub



**"Neftqaztikinti" Trestinin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında keçirdiyi müsabiqədə qaliblər sırasında olmuşdur.**

**Əlbəttə, coğrafi baxımdan geniş, iş şəraitinə görə çətin ərazilərdə fəaliyyət göstərən bir təşkilatın, özü də ölkənin yüzlərlə müəssisəsinin qatıldığı belə bir müsabiqədə qalib gəlməsi o qədər də asan məsələ deyil. Təsəvvür edin ki, trestin tərkibinə müxtəlif profilli 7 tikint-quraşdırma bölümü, ixtisaslaşdırılmış təmir-tikinti bölümü, dəmir-beton məmulatları istehsalı bölümü, dağılan və dağılmayan müayinə bölümü, anbar təsərrüfatı bölümü, Gürcüstan nümayəndəliyi və Abu Dabi filialı daxildir.**



Hazırda trest respublikamızın bütün regionlarında, o cümlədən "Günəşli" və "Neft Daşları" yataqlarında, Qum, Pirallahı, Çilov, Xəzər-Zirə və başqa adalarda, onların ətrafında müxtəlif sifarişçi təşkilatlar, o cümlədən SOCAR-ın təşkilatları üçün podratçı olaraq müxtəlif növ təmir və tikinti-quraşdırma işlərini, xidmətləri yerinə yetirir. Hamısını da yüksək səviyyədə.

**Trestin Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Cəbrayılov dedi ki, bu uğurların əsasında iki mühüm şərt durur. Birincisi, trestin kollektivi böyük təcrübəyə, tarixin sınaqlarından çıxmış ənənəyə malikdir. Əsası hələ 1949-cu ildə qoyulub. Əvvəllər "Azərdənizneftinşaat", 1979-cu ildən isə "Xəzərdənizneftqaztikinti" adları altında fəaliyyət göstərib. Adlar dəyişsə də, ənənə dəyişməyib. Trestin bazasında yüksəkixtisaslı kadrlar nəsli yetişib. Necə deyərlər, neft inşaatçısı məktəbi yaranıb. Yüksək peşəkarlıq nəsildən-nəsilə ötürülüb.**

İkinci səbəb isə, işçilərin sağlamlığının, iş şəraitinin təhlükəsizliyi məsələsinin həmişə ön planda saxlanılması olub. Trestin Həmkarlar İttifaqı Komitəsinin bizdən qabaqkı əməkdaşları da, biz də yeni yaradılan iş yerlərinin ilk növbədə əməyin mühafizəsi tələblərinə necə yararlı olduğunu yoxlamışıq. Sonra vaxtaşırı bu obyektlərə baxışlar keçiririk. Kollektiv müqavilələrdə əməyin mühafizəsinə, sağlam, təhlükəsiz iş şəraitinin yaradılmasına, qorunub saxlanılmasına dair geniş, həm də konkret öhdəliklər daxil edilib.

Elşad müəllim etiraf etdi ki, bir həmkarlar ittifaqı komitəsinin təkbaşına yerlərdə əməyin təhlükəsizliyi üçün yaradılan şəraitin vəziyyətini yoxlamaq fiziki cəhətdən, əlbəttə, real görünmür. Ona görə də biz HİK nəzdində bu sahə ilə bağlı komissiyalar yaratmışıq. İlk həmkarlar ittifaqı komitələrini, işçilərin aktiv nümayəndələrini bu işə cəlb etmişik. Üstəlik, əmək müfəttişləri ilə sıx əlaqə saxlayır, onların yoxlamalarının, baxışlarının nəticələrini Trest Həmkarlar İttifaqı Komitəsinin müzakirəsinə çıxardırıq. Müzakirələrin qəbul etdiyi qərarların icrası ciddi nəzarətdə saxlanılır.

**HİK sədri bildirdi ki, qərarların icrasında, operativ, tam həllində, kollektiv müqavilə öhdəliklərinin vaxtında həyata keçirilməsində trest rəhbərliyinin, xüsusilə trestin müdiri Qağaməli Seyfullayevin maraqlı olması həmkarlar ittifaqı komitəsinin işinin səmərəsini daha da artırır. Müdiriyyətlə sıx əlaqədə fəaliyyət göstərməyimiz bütünlükdə işçilərin sağlam əmək hüquqlarının qorunmasına xidmət edir.**

İlk həmkarlar ittifaqı komitələrinin sədrlərinin də iştirakı ilə əməyin mühafizəsinə dair keçirilən təlimlər, aparılan maarifləndirmə işləri sayəsində müəssisəmizdə istehsalatda ölüm hadisəsi, peşə xəstəliklərinə görə işdənqalma halları qeydə alınmayıb.

Bu sahədə uğurlarımız beynəlxalq səviyyədə də diqqət çəkmişdir.

**2002-ci ildən başlayaraq, müxtəlif illərdə Trest TSE-İSO-EN 9002 - "Keyfiyyət", TSE-İSO-EN 14001 - "Ətraf Mühitin Mühafizəsi", TS-45001 - "Əməyin Mühafizəsi və Təhlükəsizliyi" və TS EN İSO/İEC 17025 - "Yoxlama və sınaq işlərinin yetərliliyi" üzrə beynəlxalq sertifikatlara layiq görülmüşdür.**

**B.RZAYEV**

## Uşaq Evi qaliblər sırasında

**Şəki şəhərindəki Qarışıq Tipli Uşaq Evi AHİK-in "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında keçirdiyi müsabiqənin qalibləri sırasında olmuşdur. Bu uğur münasibətilə qalib müəssisədə tədbir təşkil edilmişdir. Tədbiri giriş sözü ilə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasiyeva açmışdır. Bildirmişdir ki, 2017-ci ildə şəhərimizdəki Qarışıq Tipli Uşaq Evi üçün Heydər Əliyev Fondunun xətti ilə yeni binanın tikintisinə başlanılmış və 2018-ci ildə istifadəyə verilmişdir. Burada təlim və tərbiyə alan uşaqlardan ötrü sağlam və təhlükəsiz şərait yaradılmışdır.**

**Şəki Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Günəş Əzimova, Şəki Şəhər Təhsil Şöbəsinin müdir müavini Elxan Abdullayev valideyn himayəsindən məhrum olan uşaqlara dövlətimizin başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısından, yaradılan şəraitdən danışdılar. Kollektivə gələcək fəaliyyətlərində uğurlar arzuladılar.**



Sonra Rayon Komitəsi evin müəllim və şagirdləri üçün öz vəsaiti hesabına şirniyyat süfrəsi açdı, onlara hədiyyələr təqdim etdi.

**Uşaq Evinin direktoru İlhamə Məmmədova bu diqqətə görə həmkarlar ittifaqına təşəkkürünü bildirdi.**



# Müasir dünyamızda unudulan multikulturalizmi “Xarıbülbül” bütün dünyaya xatırlatdı

Azərbaycanın incisi, musiqi beşiyi, mədəniyyət ocağı, Qafqazın konservatoriyası adlanan Şuşa hər zaman nəinki bizim, bütün dünyanın diqqət mərkəzində olub. Hələ 1989-cu ildən keçirilən “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı Şuşanı beynəlxalq aləmə tanıdan mötəbər tədbirlərdən biri idi. Düşmən işğalından azad edildikdən sonra bu festivalın qeyd olunması, Qarabağın, xüsusilə də Şuşanın yenidən mədəniyyət mərkəzinə çevrilməsi mədəniyyətin, musiqinin aid olduğu yerə qaytarılması kimi qiymətləndirilir. Qarabağın işğaldan azad edilməsindən sonra Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi, Şuşada Dünya Azərbaycanlılarının Qurultayı və “Xarıbülbül” festivalının keçirilməsi həm siyasi, həm iqtisadi, həm də fəlsəfi əhəmiyyəti özündə ehtiva edir.

**Milli Məclisin deputatı Arzu Nağıyev** bu əlamətdar tədbirlə bağlı fikirlərini bizimlə bölüşdü. Dedi ki, 55 ölkədən 400 nəfər nümayəndənin iştirak etdiyi Dünya Azərbaycanlılarının Qurultayının, ADA Universitetinin təşkilatçılığı ilə dünya beyin mərkəzlərinin baş tutan konfransının, Azərbaycan Parlamentinin komitə iclaslarının və nəhayət, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının məhz Şuşada keçirilməsi əslində dünyaya verilən bir mesajdır: “44 günlük müharibədəki qələbəmizdən sonra Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq “Xarıbülbül” festivalının yenidən bərpa olunması çox vacib bir addım idi. Dünyanın dörd bir yanından musiqiçilərin, mədəniyyət nümayəndələrinin dəvət olunması, folklorumuzun nümayiş etdirilməsi, musiqimizin yenidən o torpaqlarda səsləndirilməsi nəinki Ermənistana, elə bütün dünyaya göndərilən bir mesaj oldu. Hər kəs şəhidlərimizin qanı, qazilərimizin sağlamlığı hesabına yenidən qovuşduğumuz bu şəhərin əsrarəngizliyindən, gözəlliyindən xəbərdar oldu. Prezident İlham Əliyev festivalın açılışında bu tədbirin xüsusilə Şəhidlərimizin ruhuna həsr olunduğunu da qonaqların diqqətinə çatdırdı. Onlar əliyalın, ölümün üzünə dik baxaraq sıldırım qayalardan aşıb düşmən üzərinə gedərək bu şəhərin qurtulması üçün canından, sağlamlığından keçməyin nə olduğunu anladılar. Bir sözlə, bu torpaqların Azərbaycan üçün nə demək olduğu bir daha dünyaya sübut olundu, eyni zamanda düşmənə göz dağı verərək Şuşamızı göz bəbəyimiz kimi daim qoruyacağımızı da göstərmiş olduq”.

**Milli Məclisin deputatı Elman Məmmədov** dedi ki, bu cür tədbirlərin keçirilməsi nəticəsində dünya görür ki, Şuşa əsl sahiblərinə qayıtdıqdan sonra necə dəyişir, işğaldan azad edilmiş ərazilərimizə, şəhər və kəndlərimizə yeni nəfəs gəlir: “Ermənilər daim Qarabağ torpaqlarının onlara məxsus olduğunu dünyaya “sübut” etməyə çalışıblar, elə bu gün də bu mənasız fikirlərini səsləndirməkdə davam edirlər. O zaman mən sual verirəm. Yaxşı, əgər bu torpaqlar sizin idisə, bəs nə üçün bu 30 il ərzində orada bir abadlıq işləri görülməyib, daş-daş üstünə qoyulmayıb. Əgər doğrudan da Şuşa sizin idisə, niyə 33 il ərzində orada hansısa tarixi, mədəni, mənəvi “abidəniz” bərpa olunmayıb. Ancaq dağıtmaqla, viran qoymaqla məşğul olmusunuz. İl yarım ərzində mən dəfələrlə Şuşaya səfərlər etmişəm. Hər dəfəsində də Şuşamızın necə addım-addım bərpa olunduğunun, dirçəldiyinin, “həyata qayıtdığının” şahidi olmuşam. Bax, budur Vətənə, torpağa sahib olmaq, ona sevgi göstərmək, qayğısına qalmaq. Elə buna görə də bu cür beynəlxalq tədbirlərin keçirilməsi siyasi baxımdan, haqqın öz yerini tapması baxımından çox vacibdir. Bu yolla dünya ictimaiyyətinin nümayəndələri düşmənin vəhşi, vandal, yalançı, böhtançı xislətinin, bizim isə humanist mövqe ortaya qoyduğumuzun bir daha şahidi oldular. Hesab edirəm ki, Şuşamızla bərabər işğaldan azad olunmuş bütün ərazilərimizdə görülən hər bir iş düşmənə və onun havadarlarına dərsverici bir mesajdır”.

Deputat dedi ki, bu festivalın fəlsəfi tərəfi isə odur ki, 33 ildən sonra Şuşada - Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil olunan “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin dünyada tanıdılmasına və gələcək nəsillərə ötürülməsinə misilsiz töhfədir.

**Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov** dedi ki, bu festivalla həm də Azərbaycan öz tolerantlığını, multikulturalizmini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrindən gələn musiqiçilər, ictimai xadimlərlə yanaşı, Vətən müharibəsində Azərbaycanın qələbəsində mühüm rol oynayan bütün etnik azlıqlar da öz folklor nümunələrini sərgilədilər: “Müxtəlif millətlərin, dinlərin nümayəndələrinin sülh, barış, həmrəylik formasında yaşaması, yəni birgə yaşayışın həyata keçirilməsi nəticəsində cəmiyyətlər və dövlətlər formalaşır və inkişaf edir. Müasir dünyamızda unudulan bu multikulturalizmi bu gün rəsmi Bakı bütün dünyaya xatırlatdı. Və elə bu mesajın işğaldan azad edilən Azərbaycan mədəniyyətinin paytaxtında dünyaya ötürülməsi heç də təsadüfi deyildi.

**Onu da qeyd edim ki, müxtəlif dövlətlərin nümayəndələrinin iştirak etdiyi V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı Azərbaycanın aktivinə yazıldı. Azərbaycan Şuşada bu cür mühüm tədbir keçirməklə ölkəmizin gücünü və postmüharibə reallıqlarını bir daha bütün dünyaya nümayiş etdirdi. Bu da, təbii ki, dostlarımızı sevindirdi, düşmənlərimizi isə narahat etdi”.**

**Aliyə SƏMƏDOVA**

# Formula 1 yarışları yenidən öz azarkeşlərinə möhtəşəm həyəcan yaşadacaq

Gülöyşə MƏMMƏDLİ

**Bakıda iyun ayının 10-dan Formula 1 yarışlarına start veriləcək. İyunun 12-dək davam edəcək bu yarışlara paytaxtımız necə hazırlaşıb?**

Bu sualın cavabını **Milli Məclisin deputatı Könül Nurullayeva** ilə araşdırdım. O dedi ki, artıq bu sahədə ölkəmizin böyük təcrübəsi var. Beynəlxalq səviyyədə də etiraf olunduğu kimi, Azərbaycan Formula 1-in ən uğurlu ev sahiblərindən biridir.



Konkret hazırlıq məsələlərinə gəlincə deyim ki, təşkilatçıların qarşısında duran ilk və ən ciddi vəzifə istər tamaşaçıların, istərsə də iştirakçıların təhlükəsizliyinin təmin edilməsidir.

Bu məqsədlə “Bakı Şəhər Halqası” Əməliyyat Şirkətinin əməkdaşları və Bakı Marşal Klubunun üzvləri üçün təlimlər keçirilir. Təlimlərdə onlar fövqəladə hallarda, yəni yaranacaq təhlükəli vəziyyətlərdə çevik, qarşılıqlı fəaliyyət göstərmək vərdişlərinə yiyələnirlər. Məlumat üçün deyim ki, yarışlarda 1400 marşalın xidmətindən istifadə ediləcək.

**- Könül xanım, yarışlara əsasən hansı ölkələrdən və nə qədər tamaşaçının gələcəyi gözlənilir? Təbii ki, hər bir xarici tamaşaçı həm də turist kimi Bakıdakı günlərini səmərəli keçirmək istəyəcək.**

**- Həm tamaşaçı, həm də turist kimi onlara hər cür şərait yaradılacaq. Yarış günləri üçün almaniyalı Hermann Tilke tərəfindən layihələndirilən şəhər trası unikallığı ilə seçilir. Belə ki, Monte Karlo və Sinqapur kimi, Azərbaycan Qran Prisi də şəhər trası statusuna malikdir. 2018-ci ildə 21 mərhələnin təhlili zamanı mütəxəssislər Bakı Qran Prisini mövsümün ən yaxşısı adlandırıblar. 2019-cu ildən sonra tribunalara yenidən qayıdan azarkeşlər builki yarışa xüsusi rəng qatacaqlar. Təşkilatçılar bu istiqamətdə bütün zəruri tədbirləri görür. Həyəcanlı mübarizə ilə yanaşı, azarkeşlər həftəsonu Bakının Dənizkənarı Milli Parkı boyunca uzanan əyləncə zonalarını da özləri üçün kəşf edəcəklər. Nəhayət ki, azarkeşlərin gözlədiyi avtoqraf sessiyaları və Pit zolağı gəzintisi onlara F1 super ulduzlarını və komandalarını yaxından görmək imkanı yaradacaq. 2016-cı il Bakı debütündən bəri paytaxtımızın şəhər halqası dünya F1 azarkeşlərinin sevimlisinə çevrilib. F1 tarixində ən yaddaqalan və dramatik yarışlara ev sahibliyi etməklə dünyanın aparıcı F1 pilotlarını sınaq qarşısında qoyur. Yarış bolidlərinin 366 km/saat sürətlə rekord həddə çatdığı, 2 km. uzunluğunda düz yolu və UNESCO-nun mədəni irs nümunəsi İçərişəhər Qala divarları qarşısından keçərək dar yolları aşan, dolama döngələri ilə tanınan Bakı Şəhər Halqası qısa müddət ərzində bugünkü F1 təqvimində ən çətin treklərdən biri kimi öz yerini təsdiqlədi. Bakı trekində heç bir pilot iki dəfə qalib gəlməyib, son beş yarışda beş fərqli qalib müəyyən olunub. Ötən illərdə yaşanmış gözlənilməz anlar, sərt rəqabət və saysız-hesabsız həyəcanlı hadisələr budəfəki yarışda da istisna olunmur.**

**- Formula 1 Azərbaycana Avropa ölkələrindən gələn turist sayında artıma təsir göstərə biləcəkmi?**

- Formula 1 yarım milyarda yaxın auditoriyası olan bir yarışdır. Azərbaycanda keçirilən birinci Formula Qran-Prisindən sonra ölkəyə kütləvi turist axını başlayıb. Yəni turistlərin sayı 24 faiz artıb. Ondan sonrakı il daha 22 faiz, sonra daha 5 faiz. Nəhayət, 2019-cu ilin on bir ayında isə 11 faiz artım qeydə alınıb. Ölkə Prezidenti İlham Əliyev 2020-ci ildə Ümumdünya Turizm Təşkilatının Baş katibi ilə onlayn görüşdə bildirmişdi ki, Azərbaycanda turizmin sürətli inkişafı çox cəhətdən Formula 1 yürüşlərinin keçirilməsi ilə bağlı idi.

Əcnəbilər Azərbaycanda hər il birbaşa və dolayısı yolla təqribən 1,5-2 milyard dollar pul xərcləyirlər. Bu da ölkə iqtisadiyyatına böyük valyuta axını deməkdir.

**- Bəzən sosial şəbəkələrdə bu yarışlara qoyulan sərmayənin həddindən artıq və lazımsız olduğu qeyd edilir. Bu nə dərcədə doğrudur?**

- Mən belələrinə “PricewaterhouseCoopers” (PwC) beynəlxalq audit şirkətinin apardığı müstəqil araşdırmanın nəticələrini misal gətirməklə cavab verəcəyəm. Araşdırmalarda qeyd olunur ki, 2016-2019-cu illər ərzində Bakıda keçirilmiş Formula 1 yarışları ölkə iqtisadiyyatına ümumilikdə 506.3 milyon dollar gəlir gətirib.

Ölkənin nüfuzunun artması və təbliğatı baxımından da Formula 1 önəmli idman yarışıdır. 2018-ci ildə baş tutmuş Azərbaycan Qran Prisini ümumilikdə 82.3 milyon televiziya tamaşaçısı izləyib. Bu göstərici 2019-cu ildə 10% artaraq 90.2 milyon nəfər təşkil edib.

**- Daha çox hansı sahələr maliyyə baxımından Formula 1-dən faydalanır?**

- Hotel və mehmanxana, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət və elektrik, qaz, su və digər sektorlara Bakıda baş tutmuş dörd Qran Pri ərzində qeydə alınmış birbaşa gəlirlərin 73.8 milyon dolları məhz turizm, mehmanxana və nəqliyyat sektorlarının payına düşür.

**Bu gəlirlər çox sayda müvəqqəti iş yerlərinin açılmasını stimullaşdırıb. Hesablamalara görə, 2016 və 2017-ci illər ərzində 5-10 min arasında qısa və ortamüddətli yeni iş yerləri açılıb. 2018 və 2019-cu illərdə isə bu göstərici 7.5 min iş yeri təşkil edib. Yəni bu yarışlar ilk növbədə paytaxtda yaşayan və işləyən hər bir kəsə yeni iqtisadi, sosial və mədəni qazanc imkanları yaradır.**



# Sərnişindaşıma qatarlarının fəaliyyəti niyə bərpa olunmur?

**Artıq iki ildən çoxdur ki, ölkədaxili sərnişin qatarları işləmir. Əvvəllər bunun pandemiya ilə bağlı olduğu bildirilirdi. Lakin şəhərlərarası avtobus reysləri işə salınandan sonra məlum oldu ki, sərnişin qatarlarının işləməməsi pandemiya ilə əlaqəli deyil. Bəs əsl səbəb nədir?**

Sualımıza cavab tapmaq məqsədilə ilk növbədə **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramova** müraciət etdik.

**Millət vəkili də sərt karantin rejiminin aradan qaldırılmasından sonra dəmiryol xətlərinin bərpa ediləcəyini gözlədiyini söylədi. Güman etdiyini bildirdi ki, yay mövsümündə bölgələrə gedənlərin sayında ciddi artım olacağını nəzərə alaraq sərnişindaşıma qatarları fəaliyyətini bərpa edər... Bu həm iqtisadi baxımdan, həm də sosial aspektdən vacib məsələdir. Həm də digər ölkədaxili nəqliyyat vasitələrinin yükünün azaldılması və vaxta, xərcə qənaət edilməsi aspektindən də önəmlidir.**

V.Bayramov onu da diqqətimizə çatdırdı ki, Milli Məclisdə o və daha bir neçə deputat bu problemin tez bir zamanda aradan qaldırılması təklifini irəli sürüblər.

Sualımızı ünvanladığımız “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən (ADY) isə bildirdilər ki, ölkəmizdə pandemiya dəmir yolu nəqliyyatı ilə sərnişindaşıma xidmətlərinin həyata keçirilməsinə də mənfi təsir göstərdi. Eləcə də ölkədaxili və beynəlxalq sərnişindaşımalarında müəyyən məhdudiyyətlərin tətbiq olunmasına səbəb oldu. Həmin təsirlər nəticəsində iş həcminin və əməyin intensivliyinin azalması bir sıra işçilərin fəaliyyətsiz qalmasına, uzunmüddətli boşdayanma hallarının baş verməsinə gətirib çıxardı. Buna baxmayaraq, pandemiya dövründə həmin işçilərə qarşılıqsız olaraq tam əməkhaqlarının ödənilməsi təmin edildi.

**- Əməkhaqqından söz düşmüşkən, QSC-də nə qədər işçi var. Son iki ildə onların əməkhaqlarının ödənilməsi mümkün olubmu?**

- “Azərbaycan Dəmir Yolları” QSC-də 18 mindən çox işçi var. Pandemiya müddətində yalnız 2000-ə yaxın işçi əmək fəaliyyətində olmayıb və həmin şəxslərə pandemiya başladığı tarixdən son dövrlərə kimi bütün aylar üzrə ümumilikdə on milyon manatdan artıq vəsaiti əhatə edən əməkhaqqı verilib.

**- Bizdə olan məlumata görə, ADY-də müəyyən qədər borc yaranıb. Bu da işçilərin əməkhaqqının azaldılması, hətta işçi sayının məhdudlaşdırılması ilə nəticələnir. Yayılan bu xəbərlər həqiqəti əks etdirirmi?**

**- Hazırkı mühit yaranmış əvəzi ödənilməyən öhdəliklərin qarşısının alınmasını, ADY-də borcların restrukturizasiyasına təsirlərin minimallaşdırılmasını, müvafiq fəaliyyətin daha optimal həcmdə resurs sərf etməklə həyata keçirilməsini, işçilərin sayının işin həcminə uyğunlaşdırılmasını və kadr potensialının buna mütənasib optimallaşdırılmasını zəruri edib. Bununla bağlı Əmək Məcəlləsinə uyğun olaraq fəaliyyətsiz qalmış işçilərin boşdayanma vaxtı həmin işçilər üçün müəyyən edilmiş dərəcənin tarif (vəzifə) maaşının üçdəiki hissəsi məbləğində ödəniş tətbiq edilir. Qeyd edək ki, bütün bu tədbirlər əmək qanunvericiliyinin tələblərinə tam riayət olunmaqla həyata keçirilir.**

Bununla bərabər fəaliyyətsiz qalmış və ixtisar riski olan əməkdaşların sonrakı məşğulluğunun təmin edilməsinə lazımi dəstəyin verilməsi məqsədilə aidiyyəti dövlət qurumları ilə danışıqlar aparılıb. Bu əməkdaşların “DOST” İş Mərkəzi tərəfindən müvafiq işlərə cəlb edilməsinə dair razılıq əldə edilib. Yəni bu sahədə narahatlığa ehtiyac yoxdur.

**ADY-dən onu da bildirdilər ki, fəaliyyətsiz qalmış əməkdaşların yeni quruma keçidi zamanı boşdayanma müddətində almalı olduqları əməkhaqlarına yaxın məbləğin ödənilməsi də təmin ediləcək. Eyni zamanda sosial dayanıqlığın təmin edilməsi məqsədilə sözügedən əməkdaşların “DOST” İş Mərkəzinə keçidi zamanı onlara vəzifə (tarif) maaşlarının 5 misli miqdarında birdəfəlik müavinətin ödənilməsi nəzərdə tutulub.**

**-Bəs dəmir yolu sərnişindaşıma nəqliyyatı əhaliyə nə zaman xidmətə başlayacaq?**

**-Dəmir yolu nəqliyyatı sisteminin bütün sahələr üzrə müasirləşdirilməsi davam etdirilir. Hazırda müxtəlif istiqamətlərdə sabit cərəyandan dəyişən cərəyan sisteminə keçidin təmin edilməsi istiqamətində işlər aparılır. Bu işlər tamamlandıqdan sonra qatarların ölkədaxili fəaliyyəti bərpa ediləcək. Çünki dəyişən cərəyana keçid enerji və digər resurslara qənaətə, xərclərin optimallaşmasına, istismarın asanlaşmasına və qatarların hərəkət sürətinin artırılmasına imkan verəcək. Məhz bunun üçün keçid bu qədər önəmlidir.**

**Əsli ƏHMƏDOVA**

Beynəlxalq

# Tibb bacılarının həlledici rolu heç vaxt unudulmayacaq

**Mayın 12-də biz Beynəlxalq Tibb Bacıları Gününü qeyd edirik. Bu il pandemya bir az səngisə də, səhiyyə və sosial təminat sektorunda və cəmiyyətimizdə tibb bacılarının həlledici rolu heç vaxt unudulmayacaq. Ölümlərin sayı azaldıqca, kütləvi informasiya vasitələrinin və siyasətçilərin pandemiya zamanı həyatlarını təhlükəyə atanların roluna diqqəti də azalır.**




Son həftələrdə Finlandiyada minlərlə tibb bacısının tətil etdiyini, İtaliyada, Xorvatiyada, Latviyada və Avstriyada kollektiv fəaliyyət və bir sıra təcili tədbirlərin görülməsi üçün hökumətə müraciət hallarını gördük. Bundan əlavə, minlərlə tibb bacısı İspaniya və Yunanıstanda öz müqavilələrini uzatmır, onların bir çoxu pandemiyanın tüğyan etdiyi dövrdə fəaliyyət göstərdilər. Buna baxmayaraq, kadrların saxlanması səhiyyə və sosial təminat sektorunda ciddi bir problem olaraq qalır, tibb bacıları və digər səhiyyə işçiləri olmadan biz pandemiyanın üç dalğasını idarə edə bilməzdik.

**Biz bir daha siyasətçiləri tibb bacılarının əvəzolunmaz işini tanımağa və daha yüksək ödəniş və iş şəraitini, o cümlədən əmək gigiyenasını və təhlükəsizlik texnikasını təmin etməyə çağırırıq. Səhiyyə və sosial xidmət mütəxəssislərinin işinin mürəkkəbliyi əməkhaqqı strukturlarında daha çox tarazlıq və bərabərlik tələb edir.**

Vətəndaşların Avropanın gələcəyi ilə bağlı konfransda səsləndirdiyi problemlərdən biri də səhiyyə sisteminə investisiya qoyuluşu ilə bağlı idi. Pandemiyanın göstərdiyi kimi, bunun üçün adekvat kadr təminatı və tibb bacılarının yaxşı iş şəraiti lazımdır.

Bu, iş yerində sağlamlıq və təhlükəsizliyin təmin edilməsini, eləcə də psixososial risk faktorlarının və işlə bağlı stresin idarə edilməsini əhatə etməlidir. Qeyri-adekvat kadr çatışmazlığı və davamlı sərmayə olmaması səbəbindən pandemiya zamanı işin intensivləşməsi tibb bacılarının iş yükünü artırdı və onların psixi rifahına təsir etdi, bir çoxlarının xəstəlik məzuniyyətinə çıxmasına səbəb oldu.

**Bu il Beynəlxalq Tibb Bacıları Günü həm də özəl sektorda peşənin yenidən qiymətləndirilməsi zərurəti ilə qeyd olunur. "Orpea" qalmaqalı bəzi özəl provayderlərin qayğı keyfiyyətini və peşəkar standartları necə aşağı saldığını, pula qənaət etmək üçün tələb olunan gecə tibb bacısı növbələrini yerinə yetirmədiyini və xəstələri risk altına atdığını göstərdi.**

**Bu məqsədlə Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) Avropa İttifaqına aşağıdakı müraciəti ünvanlayıb:**

• Yeni yaradılmış COVID komitəsinin pandemiya zamanı tibb bacılarının rolunu qiymətləndirməsini və tibb bacılarını və onların təşkilatlarını növbəti pandemiya üçün öyrəniləcək dərslərlə bağlı müzakirələrə cəlb etməsini təmin etmək.

• Sosial müdafiə sahəsində sahə sosial dialoqunun qurulmasında sosial tərəfdaşlara dəstək.

• İşçiləri işlə bağlı stres və yorğunluqdan qorumaq üçün xüsusi psixososial risk direktivinin hazırlanması.

• Səhiyyə işçi qüvvəsinin gücləndirilməsi ilə əlaqədar tibb bacılarının iş şəraitinin yaxşılaşdırılması üçün "EU4Health" büdcəsinin investisiyasını artırmaq. Komissiya üzv dövlətləri bu məqsədlər üçün maliyyələşdirmə ilə bağlı müraciət etməyə təşviq etməlidir.

**EPSU milli hökumətləri və işəgötürənləri çağırır:**

• İş yükünü artıran və yüksək stres səviyyəsinə səbəb olan kadr çatışmazlığı problemini həll etmək. Ehtiyaclara əsaslanan kadr cədvəlinə nail olmaq üçün tədbirlər görülməlidir.

• İctimai psixi sağlamlıq xidmətlərinə daha çox investisiya qoymaq və bütün tibb bacılarının onlara tam və pulsuz çıxışını təmin etmək.

• Kollektiv danışıqları və həmkarlar ittifaqlarının hüquqlarını dəstəkləmək.

Qlobal səviyyədə biz hökumətləri ehtiyaca əsaslanaraq adekvat şəkildə təchiz edilmiş işçi qüvvəsi çatışmazlığını həll etmək üçün tədbirlər haqqında Ümumdünya Səhiyyə Təşkilatının pandemiya müqaviləsinin bağlanması istiqamətində işini dəstəkləməyə çağırırıq.

**Nəhayət, bir ildən sonra biz hələ də COVID-19 peyvəndi ilə bağlı "TRIPS"in ləğvinə çağırırıq. Biz yeni variantlarla üzləşməyə davam edirik və bəzi ölkələrdə peyvənd nisbəti 30%-dən aşağıdır. Tibb bacılarının yenidən lazımsız risklərə məruz qalması qəbuledilməzdir.**



# "Biz heç vaxt uşaq əməyini qəbul etməyəcəyik"

**Cənubi Afrikanın Durban şəhərində uşaq əməyinin davamlı olaraq aradan qaldırılması üzrə 5-ci Qlobal Konfrans keçirilib. Konfrans uşaq əməyinə cəlb olunmuş uşaqların sayının artması ilə mübarizə üçün təcili tədbirlərin görülməsi çağırışı ilə açılıb.**

Konfransda çıxış edən **Cənubi Afrika prezidenti Siril Ramafosa** uşaqların həyatını yaxşılığa doğru dəyişdirmək üçün nümayəndələri daha səmərəli fəaliyyətə çağırıb. O deyib: "Biz ona görə buradayıq ki, uşaq əməyinin bütün təzahürlərinin təhlükəli bir hal olduğunu bölüşürük. Uşaq əməyindən istifadə uşaqlarımızın inkişafının və tərəqqinin düşmənidir. Heç bir sivilizasiya, heç bir ölkə, heç bir iqtisadiyyat, əgər onların uğurları və sərvətləri uşaqların zəhməti hesabına qurulubsa, tam sürətlə inkişaf edə bilməz".

Onun çağırışını **Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Qay Rayder** də dəstəkləyib: "Kimsə deyə bilər ki, uşaq əməyi yoxsulluğun qaçılmaz nəticəsidir və biz bununla razılaşmalıyıq. Amma bu, düzgün deyil. Biz heç vaxt uşaq əməyini qəbul etməyəcəyik. Əsas səbəbləri aradan qaldırmaq lazımdır. Ancaq yanılmayın, uşaq əməyi əsas insan hüququnun pozulmasıdır və məqsədimiz hər yerdə hər bir uşağın ondan azad olmasıdır".

**BMT-nin 2025-ci ilə qədər Dayanıqlı İnkişaf Məqsədində uşaq əməyinin aradan qaldırılmasının son müddəti yaxınlaşır, bir çox natiqlər COVID-19 pandemiyasına qədər əksər regionlarda əldə edilmiş tərəqqinin bərpa olunmasının zəruriliyini vurğulayıblar.**

Son məlumatlar göstərir ki, dünyada 160 milyon uşaq, demək olar ki, hər on uşaqdan biri hələ də uşaq əməyi ilə məşğul olur. Rəqəmlər artır və pandemiya çoxillik tərəqqini heçə endirə bilər. Uşaq əməyi xüsusilə 5-11 yaş qrupunda xüsusilə artmışdır.

Uşaq əməyinin aradan qaldırılması üzrə Qlobal Konfrans ilk dəfə Afrika regionunda keçirilir. Qitədə uşaq əməyinin böyük bir hissəsi, təxminən 70 faizi kənd təsərrüfatının payına düşür, burada uşaqlar ailələri ilə birlikdə çalışırlar.

**Konfrans Osloda (1997), Haaqada (2010), Braziliyada (2013) və Buenos-Ayresdə (2017) keçirilmiş və problemə diqqəti cəlb edən, irəliləyişləri qiymətləndirən, resursları səfərbər edən və uşaq əməyinə qarşı qlobal hərəkat üçün strateji istiqamət müəyyən edən əvvəlki dörd qlobal konfransa əsaslanacaq.**

# Tərəflər danışıqlar masasına ümid edirlər

**Kanadada Ontario vilayətinin Dülgərlər Birliyi tikinti sahəsində tətilə ən son qoşulan təşkilat oldu. Qeyd edək ki, kommersiya və yaşayış binalarının tikintisi sahəsində 20 minə yaxın işçi etirazı dəstəkləyir. Dülgərlərlə yanaşı, tikinti sektorunda digər peşələrin nümayəndələri də tətil edirlər: krançılar, montajçılar, torpaq işləri görənlər, binanın özülünü hazırlayanlar, döşəmə, parket və kafel ustaları və başqaları.**



Tətilin səbəbi kimi maaşların aşağı olması göstərilir. Pandemiya zamanı tikintidə işləmək vacib hesab edilirdi, lakin bu, artan yaşayış dəyərinin öhdəsindən gəlməyə kömək etmir. Kanada uzun illərdir ki, mənzil böhranı yaşayır. Ölkənin bir çox yerlərində tələb təklifi üstələyir və hökumət uzun müddətdir ki, onu balanslaşdırmaq üçün çalışır. Bununla belə, danışıqlar prosesi öz bəhrəsini verməkdədir. Məhəccər quraşdıranlar mayın 7-də razılığa gəlib və tətili dayandırıblar. Tərəflər mayın sonuna doğru yenidən danışıqlar masasına qayıdacaqlar.

# Tələbə kreditlərinin silinməsi

**Amerika Əmək Federasiyası-İstehsalat Həmkarlar İttifaqları Konqresinin (AFL-CIO) həmkarlar ittifaqının prezidenti Liz Şuller ABŞ prezidentini tələbə borcunu silməyə çağırıb. Qurumun verdiyi məlumatda deyilir ki, COVID-19 böhranı bir çox borcalanların qazanclarına təsir edir. Hələ də maliyyə vəziyyətinin nə vaxt sabitləşəcəyini bilmədikləri üçün onlar borclarını ödəməkdə çətinlik çəkirlər.**




L.Şuller deyib ki, mütəşəkkil əmək hamı üçün orta sinfə aparan yolun yaradılmasının təməli üzərində qurulmuşdu. Amma artan tələbə kredit borcu bu məqsədə çatmaq üçün keçilməz bir maneəyə çevrildi. Prezident Administrasiyasının tələbə borcunu dayandırmaq qərarı bir çox borcalanın həyatına böyük təsir göstərdi, lakin bu borcalanlar kreditlərini ödəməyə başlamaq üçün maliyyə vəziyyətlərini nə vaxt kəskin şəkildə dəyişdirməli olacaqları ilə bağlı qeyri-müəyyənlik içində yaşamağa davam edirlər. Daha əvvəl hökumətin 1,6 trilyon dollar tələbə kreditinin ən azı bir hissəsini bağışlamaq planları barədə məlumat verilmişdi. ABŞ-da borcluların ümumi sayının 44 milyon nəfər olduğu təxmin edilir.

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

# Yeni vergi güzəştləri tətbiq olunacaq




**Vergi güzəştləri vergi siyasətində hər zaman əsas prioritetlərdən biri kimi aktual olaraq qalmaqdadır və son illərdə vergi qanunvericliyinə edilən dəyişikliklərin böyük bir qismini də məhz güzəşt və azadolmalar təşkil edir. Çünki güzəşt və azadolmalar ilk növbədə iqtisadiyyatın vergi yükünün azaldılmasına və biznesin azad fəaliyyətinin genişlənməsinə və rəqabət potensiallarının artırılmasını motivasiya etməyə, sahibkarlara əlavə iqtisadi stimulların verilməsinə və nəticədə yeni vergi mənbələrinin tapılmasına, eləcə də vətəndaşların sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Bu baxımdan hökumət vergi güzəşt və azadolmalarının səmərəliliyini qiymətləndirərək bir sıra sahələrə yenidən vergi güzəştləri vermək niyyətindədir. Milli Məclisin ötən həftə keçirilən iclasında üçüncü oxunuşda müzakirə edilən Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdən biri məhz yeni güzəştləri nəzərdə tutur.**

Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, gəlir vergisindən azadolmalar və güzəştlərin siyahısı artırılır. Layihəyə əsasən, fiziki şəxslərin kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə əldə etdikləri dividentlər və faiz gəlirləri 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətinə gəlir vergisindən azad ediləcək. Burada məqsəd ölkədə səhm və istiqraz bazarında vətəndaşların fəallığını artırmaq, onların səhm və istiqrazlara marağını motivasiya etməkdir. Son illərdə dövlət şirkətləri ilə yanaşı, banklar, səhmdar cəmiyyətlər, iri kommersiya şirkətləri, sığorta və biznes qurumları da istiqraz və səhmlər buraxır və illik gəlirliliyi təxminən 7-8 faiz təşkil edən istiqrazlardan dividend əldə edən vətəndaşlardan təxminən 10 faiz vergi tutulur. Bu isə vətəndaşların istiqrazlardan qazandığı gəlirlərin azalmasına səbəb olur. Ona görə də hökumət səhm və istiqrazlara marağı artırmaq üçün dividendlərdən gəlir vergisini 2023-cü ilin yanvarından ləğv etmək qərarına gəlib. Qeyd edək ki, fiziki şəxslərə ödənilən dividendlərlə bağlı vergi güzəştləri və azadolmalar Vergi Məcəlləsinin 102-ci maddəsi ilə tənzimlənir. Həmin maddəyə əsasən, hazırda yerli bankların və xarici bankların Azərbaycanda fəaliyyət göstərən filiallarına əmanət yerləşdirmiş vətəndaşların əmanətlərdən əldə etdiyi illik faiz gəlirləri gəlir vergisindən azad edilib. Güzəşt fiziki şəxslərin banklarda olan əmanətlərinə görə əldə etdiyi faizlərə verilir. Yəni faizlər ödəniləndə onlardan ödəmə mənbəyində 10 faiz vergi tutulmur. Həmçinin investisiya fondlarında qiymətli kağızları olan vətəndaşların illik əldə etdiyi dividendləri də eyni faizdə vergidən azaddır.

Ancaq indiyə qədər istiqraz və səhmlərdən vergi tutulurdu ki, Vergi Məcəlləsində dəyişiklikdən sonra həmin sahədə vergilərdən azad ediləcəkdir. Beləliklə, səhm və istiqraz sahibi olan minlərlə sadə vətəndaş dividend və faiz gəlirlərindən vergi ödəməyəcəkdir.

**Məcəlləyə edilmiş digər dəyişiklik hüquqi şəxslərin faiz gəlirlərinə görə vahid vergitutma mexanizminin tətbiqi ilə bağlıdır. Burada söhbət hüquqi şəxslər tərəfindən ödənilən gəlir və mənfəət vergisinin vahid vergi əsasnda həyata keçirilməsindən gedir ki, bu da vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi yükünün aşağı salınması istiqamətində yürüdülən siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər.**

**Elbrus CƏFƏROV**

# Əməkdaşların gəzintisi



**AMEA Riyaziyyat və Mexanika İnstitutu Həmkarlar İttifaqı Təşkilatının təşkilatçılığı ilə mayın 14-15-də institutun bir qrup əməkdaşı Masallı rayonuna səfər edib.**

**Səfər zamanı institutun əməkdaşları üçün turlar təşkil olunub. Onlar rayonun görməli yerlərinə, tarixi məkanlara gedib, müxtəlif əyləncəli proqramlarla vaxtlarını səmərəli keçiriblər .**

# Beynəlxalq konfransın əhəmiyyəti

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və "Uptodate in Medicine"nin birgə təşkilatçılığı ilə Naxçıvanda Beynəlxalq Neonatoloji konfrans keçirilib.**




Tədbirdə Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov çıxış edib. O, "Bir yaşa qədər rast gəlinən aşağı tənəffüs yollarının xəstəlikləri" mövzusunda 3 klinik hal barədə danışıb.

**Çıxışlarda vurğulanıb ki, konfransın keçirilməsi təcrübə mübadiləsi baxımından Naxçıvan pediatrları üçün mühüm hadisədir.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 19 MAY 2022-Cİ İL / № 18 (1285)










Nabranda təmirdən yeni çıxmış otelimizdə, bütün növ əyləncələr daxil, 2 nəfərlik təkotaqlı və 2 nəfərlik 2 otaqlı, hər şəraiti olmaqla (gündə 3 dəfə yemək) dəniz kənarında, meşə yaxınlığında yaz və yay mövsümü üçün xidmətə hazırdır. Turistlərə yüksək ixtisaslı peşəkar aşpazlar və ofisiantlar xidmət göstərir. Bir nəfər üçün bir günün qiyməti 42 AZN-dir.

Yollayışların (putyovkaların) idarə, təşkilat və müəssisələrə satışı (ödəniş nağd və köçürmə yolu ilə) elektron qaimə əsasında həyata keçirilir.

Yollayışları (putyovkaları) əvvəlcədən sərfəli qiymətə əldə etməyə tələsin.

Ünvan: Nabran, "Səyahət" İstirahət Mərkəzi

Əlaqə telefonları: 0503346696, 0703346696

# Minifutbol üzrə çempionat keçirilib



**Fövqəladə Hallar Nazirliyi (FHN) İşçilərinin Həmkarlar İttifaqının və FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) təşkilatçılığı ilə DYMX-nin mərkəzi aparatı, Bakı və Sumqayıt qarnizonlarının idarə, dəstə və hissələri arasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99 illiyinə həsr olunmuş mini-futbol üzrə turnir keçirilib.**

Xidmətin idman bazasında təşkil edilən turnirdə 20 komanda iştirak edib. Yarışda DYMX-nin Azərbaycan Dövlət Neft Şirkəti Obyektləri üzrə Yanğından Mühafizə İdarəsinin komandası birinci yeri tutub. Sumqayıt Şəhər Yanğından Mühafizə İdarəsinin komandası ikinci, Nəsimi Rayon Yanğından Mühafizə Hissəsinin komandası isə üçüncü yerdə qərarlaşıb.

Final oyunundan sonra mükafatlandırma mərasimi keçirilib. Mərasimdə FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və DYMX-nin məsul şəxsləri iştirak ediblər.

**Tədbirdə çıxış edən M.İsmayılov yarışın Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99 illiyinə həsr olunduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ümummilli Liderin gənclərə və idmana göstərdiyi diqqət və qayğı ilə qoyulub. Bu gün Ulu Öndərin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin mühüm tərkib hissələrindən biri də gənclərə və idmana daim dövlət qayğısının göstərilməsidir.**

Çıxışının sonunda M.İsmayılov qalib komandaları təbrik edib, onlara uğurlar arzulayıb.

**Sonda qaliblərə FHN İşçilərinin Həmkarlar İttifaqının kubok, medal, diplom və qiymətli hədiyyələri təqdim edilib.**

# "Zəka" intellektual bilik yarışması

**Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Zəka" intellektual bilik yarışması keçirilib.**




Kənd Təsərrüfatı Nazirliyinin (KTN) Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) təşkilatçılığı ilə baş tutan yarışmanın keçirilməsində məqsəd aqrar sahədə çalışan işçilərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların bilik və elmi nüfuzunu artırmaq və vətənpərvərlik hissini gücləndirməkdir. Yarışmada nazirliyin müxtəlif qurumlarında çalışan 6 nəfərdən ibarət 14 komanda mübarizə aparıb. İntellektual oyunun qalibi Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun komandası olub. "Aqrar Tədarük və Təchizat" ASC-nin komandası II yeri, "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-nin komandası III yeri qazanıb.

Qaliblərin mükafatlandırma mərasimində KTN BHİK-in sədri Fuad Məmmədov çıxış edərək Ulu Öndərin həyat və fəaliyyətindən danışıb, onun Azərbaycan xalqının həyatındakı misilsiz xidmətlərinə diqqət çəkib. Komitə sədri bildirib ki, aqrar sahədə çalışan işçilər arasında ilk dəfə keçirilən bu bilik yarışması bundan sonra da davam etdiriləcək.

**Nazirliyin İnsan resursları şöbəsinin müdir müavini İlham Süleymanov Ulu Öndərin kənd təsərrüfatı sahəsində gördüyü işləri, həyata keçirdiyi islahatları xatırladaraq onun xatirəsinin hər kəs üçün əziz olduğunu qeyd edib.**

**Sonda qaliblərə qiymətli hədiyyələr təqdim edilib.**

# "NƏ? HARADA? NƏ ZAMAN?"...



**Nəsimi Rayon Gənclər və İdman İdarəsi, Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və Azərbaycan İntellektual Oyunlar Klubunun birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tələbələr arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.**

Yarışın keçirilməsində məqsəd Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü qeyd etmək, gənclərin intellektual səviyyəsini, dünyagörüşünü genişləndirmək və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

**Tədbirdə çıxış edənlər bildiriblər ki, Ümummilli Lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Ulu Öndərin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocağı, gənclik mərkəzi, hərbi məktəb açılıb, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alıb, müasir ixtisaslara yiyələnib.**

Daha sonra yarışa start verilib. Səkkiz komandanın iştirak etdiyi yarışda iştirakçılara 24 sual verilib.

Yarışın nəticələrinə görə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "ADNSU" komandası birinci olub. Azərbaycan Dillər Universitetinin "Coup De Gras" komandası yarışı ikinci, Bakı Musiqi Akademiyasının "FERZ" komandası isə üçüncü pillədə başa vurub.

**Mükafatçılar kubok, medal və diplomlarla təltif olunublar.**

# Elmir Əliyev "Çempionlar" turnirində qızıl medal qazanıb

**"Pəhləvan" İdman Klubunun təmsilçisi Elmir Əliyev Türkiyənin Antalya şəhərində keçirilən güləş üzrə "Çempionlar" turnirində qızıl medal qazanıb. Məşqçi-müəllim Elnur Müzəffərovun yetirməsi yunan-Roma güləşi üzrə 60 kq. çəki dərəcəsində mübarizə apararaq bu nəticəyə nail olub.**




Qeyd edək ki, yarış Avropa çempionatına seçim xarakteri daşıyırdı.

# Hüquq məsləhətxanası

**Həyat yoldaşımdan boşanmışam. 2 azyaşlı uşağım var. Məhkəmə tərəfindən uşaqlara aliment kəsilib. Bəzən yoldaşım gəlirini gizlədir. Bu yaxınlarda ixtirasına görə böyük məbləğdə mükafat almışdı, amma ondan aliment ödəmədi. İcraçı deyir ki, bu məbləğdən aliment tutulmur. Bilmək istəyirəm, hansı gəlirdən aliment ödənilməlidir?**

**Mədinə SƏMƏDOVA, Sumqayıt şəhəri.**

**- Nazirlər Kabineti tərəfindən uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri müəyyən edilmişdir. Həmin sənədə əsasən, ixtiralara və səmərələşdirici təkliflərə görə birdəfəlik mükafatlardan aliment tutulmur.**

**Uşaqlar üçün aliment valideynlərinin manat və xarici valyuta ilə aldıqları əməkhaqqından və (və ya) aşağıdakı başqa gəlir növlərindən tutulur:**

- Əmək müqaviləsi (kontraktı) üzrə işləyən işçilərə (əvəzçilik də daxil edilməklə) ödənilə bilən əməkhaqqından, o cümlədən:
- pul və ya natura ilə ödənilən tarif (vəzifə) maaşlarından, vaxtamuzd və işəmuzd qiymətlər və əməyin ödənilməsinin digər sistemləri üzrə əmək haqlarından;
- pul və ya natura ilə əməkhaqqına olan bütün növ əlavələrdən;
- pul və natura ilə verilən mükafatlardan;
- iş vaxtından artıq vaxtda görülən işə görə, habelə istirahət, səsvermə və iş günü hesab edilməyən bayram günlərində, eləcə də ümumxalq hüzn günündə görülən işə görə pul və ya natura ilə verilən əməkhaqqından;
- işçinin təqsiri olmadan zay (yararsız) sayılan məhsulun istehsalına, boşdayanmaya, hasilat normalarını yerinə yetirmədiyinə, soyuq və isti havalar şəraitində fasilələrə və işin dayandırılmasına görə ödəmələrdən;
- müvəqqəti əvəzetməyə görə ödəmədən;
- qanunvericiliklə işçilərin iş yerlərinin və orta əməkhaqqının saxlanıldığı, əvvəlki əmək haqqı ilə yeni iş yerindəki əməkhaqqı arasındakı fərq ödənildiyi və əvvəlki vəzifəsi (peşəsi) üzrə əməkhaqqı saxlanıldığı hallarda ödənilən haqdan;
- qanunvericiliklə məzuniyyət dövründə saxlanılan orta əməkhaqqından, habelə əmək müqaviləsinin ləğvi ilə əlaqədar işçiyə istifadə edilməmiş əmək məzuniyyətinə görə pul və ya natura ilə ödənilən pul əvəzindən;
- xidmət illərinə görə işçiyə pul və ya natura ilə verilən birdəfəlik mükafatlardan;
- il ərzində işin yekunlarına görə işçiyə pul və ya natura ilə verilən mükafatdan;
- əmək müqaviləsinə xitam verilərkən ödənilən işdənçıxarma müavinətindən və işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün ödənilən orta əməkhaqqından;
- qəzet, jurnal, nəşriyyat, radio və televiziya, informasiya agentliklərinin ştatlarında olan ədəbi işçilərə ədəbiyyat qonorarı fondlarından verilən qonorarlardan, daimi xarakter daşıyan müəlliflik, artist qonorarlarından və quruluş haqqından.

**Qanunvericiliklə müəyyənləşdirilmiş digər gəlirlərdən, o cümlədən:**

- məcburi dövlət sosial sığorta ödəmələrinə aid edilən müavinətlərdən və sosial müavinətlərdən (dəfn üçün müavinət istisna olmaqla);
- istehsalatda əmək xəsarəti ilə əlaqədar əmək qabiliyyətini itirmiş şəxslərə dəymiş zərərə görə ödənilən ödənclərdən;
- faktiki alınan pensiyadan;
- ali və orta ixtisas məktəblərində və kurslarda oxuyan müddətdə alınan təqaüdlərdən;
- aliment ödəyənin həyətyanı sahəsindən və yardımçı təsərrüfatından əldə etdiyi gəlirdəki payından;
- işsizlikdən sığorta ödənişindən.
- fiziki şəxsin sahibkarlıq fəaliyyətindən, habelə ailə kəndli təsərrüfatından əldə etdiyi xalis gəlirdən.
- mülki-hüquqi müqavilələr üzrə işlərin yerinə yetirilməsinə görə ödəmələrdən.

***Onu da qeyd etmək lazımdır ki, aliment onu ödəyən şəxsə çatası qazancın (gəlirin) məbləğindən vergilər tutulduqdan sonra alınır.***

**Yetkinlik yaşına çatmayan şəxsin sağlamlığı pozulduqda zərərin əvəzi necə ödənilir?**

**Mahir ƏSƏDOV, Abşeron rayonu.**

- Mülki Məcəllənin 1120-ci maddəsinə əsasən,on dörd yaşı tamam olmamış və qazancı (gəliri) olmayan yetkinlik yaşına çatmayana (azyaşlıya) xəsarət yetirildikdə və ya onun sağlamlığı başqa şəkildə pozulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs sağlamlığın pozulması ilə bağlı çəkilən xərclərin əvəzini ödəməlidir.

Zərərçəkən azyaşlı on dörd yaşına çatdıqda, habelə qazancı (gəliri) olmayan on dörd yaşından on səkkiz yaşınadək yetkinlik yaşına çatmayana zərər vurulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs zərərçəkənə sağlamlığın pozulması ilə bağlı xərclərdən əlavə, əmək qabiliyyətinin itirilməsi və ya azalması ilə bağlı zərərin əvəzini də, lakin altı manatdan az olmamaqla, ödəməyə borcludur.

Əgər yetkinlik yaşına çatmayanın sağlamlığı pozularkən onun qazancı olmuşdursa, zərərin əvəzi bu qazancın miqdarı əsas götürülməklə, lakin şərti altı manatdan olmamaqla ödənilir.

Əvvəllər sağlamlığına zərər vurulmuş yetkinlik yaşına çatmayanın əmək fəaliyyətinə başladıqdan sonra ixtiyarı var ki, əldə etdiyi qazanc əsas götürülməklə, lakin tutduğu vəzifə üzrə müəyyənləşdirilmiş muzdun və ya iş yeri üzrə eyni ixtisaslı işçinin qazancının miqdarından çox olmamaqla, zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb etsin.

**Sorğuları şərh etdi:**
**AHİK-in Hüquq şöbəsi**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri Tofiq Quliyev və kollektivi Federasiyanın sədr müavini Təhmasib Əliyevə qardaşı

**YAVƏR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**İTKİ**

**Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Astara Rayon Komitəsinə aid möhür və ştamp itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
AQİL DADAŞOV
Təsisçi:
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 1426
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət